RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 213 (8236) CÜMƏ, 27 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Etibarlı tərəfdaş, səmimi müttəfiq

## Prezident İlham Əliyevin uğurlu diplomatiyası Azərbaycanın beynəlxalq mövqelərini davamlı olaraq gücləndirir

Dövlətin beynəlxalq münasibətlər sistemindəki yeri və imici müxtəlif amillərlə ölçülə bilər. İstər siyasi, istərsə də iqtisadi sahədəki nailiyyətləri, vətəndaşlarının sosial rifahı hər bir ölkənin dünyadakı nüfuzunun müəyyən edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Müstəqil və qətiyyətli siyasi kursu ilə regionda fərqlənən, dünyada tanınan Azərbaycana məhz buna görə ehtiramla yanaşırlar.

### Azərbaycana qarşı çıxmaq qeyri-mümkündür

Hələ 25 il əvvəl "Əsrin müqaviləsi" imzalananda Azərbaycan müstəqilliyinin ilk addımlarını atır, xaosdan sabitliyə doğru irəliləyirdi. Respublikamızın hansısa beynəlxalq uğuru yox idi. Ancaq Heydər Əliyevin başlatdığı müdrik siyasət dünyanın iri neft şirkətlərini Xəzərin neft yataqlarının işlənilməsinə cəlb etdi. Və bu tarixi hadisə həm respublikamızın müstəqilliyinin möhkəmlənməsində, həm dünyada tanınmasında, həm də inkişafı istiqamətində ilk və uğurlu addım oldu.

25 il qısa dövr deyil. Lakin bir dövlətin tarixi baxımından uzun zaman kəsiyi də sayıla bilməz. Sosial-iqtisadi inkişafa nail olmaq üçün də bu dövr yetərli deyil. Dünyanın bir çox inkişaf etmiş dövlətlərinin tarixi təcrübəsi göstərir ki, onlar indiki səviyyəyə gəlib çatmaq üçün onilliklərdən keçiblər. Elə postsovet respublikalarının da bəziləri 25 il necə idilərsə, elə də qalıblar. Onların ən bariz nümunəsi Ermənistandır. SSRİ-nin dağıldığı 1991-ci ildən bəri forpost statusu daşıyan bu ölkə dünyada nəyin baş verib-verməməsindən asılı olmayaraq, ümumiyyətlə, nəinki müstəqil xarici, hətta daxili siyasət belə həyata keçirə bilməkdən məhrumdur. Təcrübədən bəlli olduğu kimi, Ermənistan kimi asılı ölkələrin siyasi hakimiyyətlərinin həm beynəlxalq məsələlərlə bağlı baxışları, həm də daxili həyata hesablanmış addımları xarici siyasi mərkəzlərlə, daha konkret ifadə etsək, vassallıqlarında olduqları dövlətlərlə razılaşdırılır. Ermənistanın beynəlxalq əməkdaşlığı kənar dövlətlərlə, hətta xaricdəki diaspor təşkilatları ilə razılaşdırmadan həyata keçirməsinin mümkünsüzlüyü, iqtisadiyyatının aparıcı sahələrinin, energetika sektorunun tamamilə xarici investorlardan asılı vəziyyətə düşməsi bu ölkənin müstəqil siyasətinin olmadığını təsdiqləyən faktorlardır.

Azərbaycana gəldikdə, "Əsrin müqaviləsi"nin imzalanmasından sonra ötən dövr ölkəmiz üçün olduqca möhtəşəm nailiyyətlərlə əlamətdardır.

Ardı 5-ci səh.

# Beynəlxalq Maliyyə Korporasiyası Dövlət Neft Fondunun fəaliyyətini təqdir edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Beynəlxalq Maliyyə Korporasiyasının iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, sizi görməyə şadam. Mənə verilən məlumata görə, siz Azərbaycan Respublikası Dövlət Neft Fondunun 20 illik yubileyinə həsr olunmuş konfransda iştirak edirsiniz. Bu, bizim əməkdaşlığımızın yaxşı göstəricisidir. Bildiyiniz kimi, ötən 20 il ərzində bizim Neft Fondumuz Azərbaycanın inkişafı üçün çox vacib vasitə rolunu oynayıb. Bununla yanaşı, fond dünyanın ən şəffaf suveren fondlarından biri kimi BMT tərəfindən mükafata layiq görülüb. Bu fondun Azərbaycanın inkişafında və sosial problemlərin həllində rolu olduqca böyükdür. Bildiyiniz kimi, fondun aktivləri hesabına biz qaçqın və məcburi köçkünlər üçün 100-dən artıq qəsəbənin tikintisini maliyyələşdirmişik. Azərbaycan Respublikası Dövlət Neft Fondu insan kapitalına, təhsilə və infrastruktura sərmayə yatırıb. Sizin konfransda iştirakınız da yaxşı göstəricidir. Bildiyimə görə, sizin təsisat vasitəsilə də 250 milyon dollar həcmində sərmayə qoyulub.

Bizim əməkdaşlığımızın çox yaxşı və uğurlu tarixçəsi var. İqtisadiyyatımızın şaxələndirilməsi və dayanıqlı iqtisadi inkişaf üçün zəminin yaradılması planlarını nəzərə alaraq gələcək inkişaf üçün də yaxşı perspektivlər mövcuddur. Neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir. Əlbəttə, bunu bir günün içində etmək mümkün deyil, ancaq şaxələndirmə və iqtisadiyyatın müasirləşdirilməsi bizə bu asılılığın böyük dərəcədə aradan qaldırılmasına imkan verəcək. Əlbəttə, bildiyiniz kimi, biz biznes mühitinin yaxşılaşdırılmasına mühüm önəm veririk. Fərəhləndirici haldır ki, Dünya Bankının "Doing Business" hesabatına görə, biz dünyanın 10 ən islahatçı dövləti sırasına daxil olmuşuq. Bununla bağlı nail olduğumuz sürətli inkişaf bizim bu sahəyə çox ciddi yanaşmamızın nəticəsində mümkün olub. Bildiyiniz kimi, biz bu məqsədlə xüsusi komissiya yaratmışıq. Həmin komissiya çatışmazlıqları aradan qaldırmaq və vəziyyəti yaxşılaşdırmaq üçün hansı işlərin görülməli olduğunu ətraflı təhlil edib. "Doing Business" hesabatına görə, ümumən 25-ci yerdə qərarlaşmaq iftixar hissi doğurur. Ancaq ən əhəmiyyətlisi odur ki, bu, biznes mühitinə və Azərbaycanın qeyri-enerji sahəsində inkişafına müsbət təsir göstərir. Gələcək prioritetlərimizə gəldikdə, hesab edirəm ki, insan kapitalı, qeyri-neft sektoru, təhsil, kənd təsərrüfatı, turizm, kiçik və orta sahibkarlığın dəstəklənməsi bizim əməkdaşlığımızın prioritetləri sırasındadır. Əminəm ki, səfəriniz çərçivəsində siz artıq bizim rəsmi şəxslərlə təmaslarınızda gələcəkdə görüləcək işlər barədə müzakirələr aparmısınız. Bir daha Azərbaycana xoş gəlmisiniz.

Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidenti **Hans Piter LANKES** dedi:

- Qəbula görə təşəkkür edirəm. Səfərimizin əsas məqsədi Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə birgə keçirdiyimiz tədbirdir. Dövlət Neft Fondu bizim uzunmüddətli yaxın tərəfdaşımızdır. Zənnimizcə, bu fond peşəkarcasına idarə olunan fondlardan biridir və biz bu əlaqələrimizə böyük önəm veririk. Konfransın mövzusu "Müsbət təsirli investisiya"dır. Beynəlxalq Maliyyə Korporasiyası da bu məsələyə önəm verir və mövzunun çox aktual olduğunun şahidiyik. Azərbaycan Respublikası Dövlət Neft Fondunun özünəməxsus sərmayə strategiyasına malik olması rəmzi məna daşıyır. Bir sözlə, çox yaxşı münasibətlərimiz mövcuddur.

Görüşdə Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanla əməkdaşlığının perspektivləri, iqtisadiyyatın şaxələndirilməsi, şəhər və kənd yerlərində yeni iş yerlərinin yaradılması, biznes mühitində qazanılmış uğurların daha da möhkəmləndirilməsi, özəl sektora birbaşa xarici investisiyaların cəlb olunması məsələləri müzakirə edildi.

# Əhalinin məşğulluq probleminin həlli daim gündəmdədir

## Bu ilin əvvəlindən işlə təmin olunanların sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur

Əhalinin məşğulluq probleminin həlli Azərbaycan dövlətinin daim gündəmdə saxladığı əsas vəzifələrdəndir. Çoxsaylı yeni müəssisələrin yaradılması, ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafının vüsət alması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və digər mühüm tədbirlər bu məqsədə xidmət edir.

2003-2018-ci illərdə ölkədə işsizlik səviyyəsinin 49 faizdən 5,4 faizə enməsi həyata keçirilən həmin ardıcıl tədbirlərin nəticəsində mümkün olub. Prezident İlham Əliyev yeni iş yerlərinin yaradılmasının ölkədə daimi proses olduğunu dəfələrlə vurğulayıb. İş yerlərinin açılmasında dinamikanın müsbət olmasına baxmayaraq, dövlət başçısı bağlanan iş yerlərinin təhlilinin aparılmasına, səbəblərin araşdırılmasına və iş yerlərini itirən vətəndaşların məşğulluğunun həllinə aid göstərişlər verib. İnsanların işlə təmin olunmasına belə böyük qayğının və həssas münasibətin nəticəsidir ki, bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, regionların sosial-iqtisadi inkişafına dair III Dövlət Proqramının icrasını əhatə edən 1 yanvar 2014-cü ildən 1 yanvar 2019-cu il tarixinədək ölkədə 960,1 min iş yeri yaradılıb. Onların 657,8 mini daimidir. Keçən il isə Azərbaycanda 127,4 min daimi iş yeri açılıb. Onların ümumi sayı isə 238,9 min olub.

Bu ilin birinci yarısında ölkədə açılan yeni iş yerlərinin sayı 92 min təşkil edib. Onların 28,9 faizi qeyri-dövlət sektorundadır.

Ardı 5-ci səh.



# Bakının nəqliyyat sistemi gündən-günə yenilənir

## Prezident İlham Əliyev paytaxtın hər yerində ən yüksək səviyyəli nəqliyyat şəraitinin yaradılması ilə bağlı tapşırıqlar verdi

Son illərdə həyata keçirilən hərtərəfli yenilənmə, sistemli və kompleks tədbirlər nəticəsində sürətlə inkişaf edən paytaxt Bakı müasir meqapolisə çevrilib.

İri iqtisadi və inzibati mərkəz olan, Avropa və dünya miqyaslı bir sıra mötəbər tədbirlərə evsahibliyi edən Bakı şəhərinin bugünkü simasına uyğun olaraq paytaxtın nəqliyyat sisteminin və infrastrukturunun inkişafı, sərnişindaşıma xidmətinin müasir tələblərə uyğun təşkili istiqamətində mühüm tədbirlər həyata keçirilib və hazırda da bu işlər davam etdirilir.

Diqqət etsək görərik ki, bu gün paytaxtın yollarına yeni səkilər salınıb, görmə əngəlli vətəndaşların hərəkəti üçün şərait yaradılıb. Hökumət Evinin arxasında pilot layihə kimi velosiped yolunun salınması nəzərdə tutulur. Yolun 100 metrlik hissəsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında əsasən yerli materiallardan istifadə edilir. Bakı şəhərində ümumilikdə 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulur. Şəhərdə parklanma ilə əlaqədar ilkin mərhələdə 600-dək yer müəyyənləşdirilib. İndi bu istiqamətdə infrastruktur işləri görülür.

Ardı 5-ci səh.

# İmtahan fəsli

## Ağ örpəkli tarlalar bol məhsuldan xəbər verir

İmişli pambıqçılarının aylardan bəri çəkdikləri zəhmət öz bəhrəsini verir. Göz işlədikcə uzanan pambıq tarlaları başdan-başa ağ örpəyə bürünüb. Böyük zəhmət bahasına yetişdirilən məhsulu yığmaq üçün rayonda mövcud texnika, əmək ehtiyatları bu işə sərf edilib. Odur ki, hər gün sübh tezdən qaranlıq düşənə kimi tarlalarda qız-gəlinlərin, texnikanın səsi kəsilmək bilmir.

Ölkənin aqrar sektorunda böyük potensiala malik İmişlidə dörd şirkətin - MKT İK MMC-nin, MKT İK İnnovasiya MMC-nin, "Azər Pambıq" MMC-nin "P. Aqro" MMC-nin İmişli filialları ayrı-ayrılıqda rayonun torpaq istifadəçiləri ilə müqavilələr bağlayıb, pambıqçılığın inkişafı üçün maddi-texniki kömək göstərir.

İmişli rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Səlim Məhərrəmovla da məhsulu yığılan tarlanın kənarında görüşdük.

- Prezident İlham Əliyevin ölkədə qeyri-neft sektorunu inkişaf etdirmək, iqtisadiyyatı şaxələndirmək barədə verdiyi tapşırıq və tövsiyələr İmişli kəndlisinin yeni fəaliyyət istiqamətlərini müəyyən etmişdir, - deyə o, söhbətə başladı. Ənənəvi, həm də gəlirli sahə olan pambıqçılığın inkişafı üçün rayonda güclü potensial var. Keçən il 18,6 min ton pambıq istehsal etdik. Üzləşdiyimiz problemlər tarlalarda məhsuldarlığı artırmağa, nəzərdə tutduğumuz hədəflərə çatmağa imkan vermədi. Bəzi ərazilərdə su təminatı tələbi ödəmədi, bəzi sahələrdə isə dövlət fondu torpaqlarının əkinəyararlığı qənaətbəxş olmadı. Ötən ilin yekunlarından ciddi nəticələr çıxararaq cari ilin pambıq əkini üçün sahələr müəyyənləşdirərkən təhlillər aparılıb pambıqçılığın inkişafında intensiv yola üstünlük verildi.

Ardı 7-ci səh.

# Azərbaycanın yəhudi icmasına

Hörmətli həmvətənlər!

Sizi - respublikamızın yəhudi əsilli vətəndaşlarını yeni il bayramınız Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınan Azərbaycanda əsrlər boyu müxtəlif etnik və dini qrupların nümayəndələri, o cümlədən yəhudilər dostluq, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşamış, heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmadan milli-mədəni və dini dəyərlərini günümüzədək qoruyub saxlamışlar.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizin ayrılmaz hissəsi olan yəhudi icması əsl vətəndaşlıq və Azərbaycançılıq mövqeyindən çıxış edərək respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində və ictimai-siyasi proseslərdə fəal iştirak edir. Əminəm ki, yəhudi əsilli həmvətənlərimiz bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da çiçəklənməsi üçün səylərini əsirgəməyəcəklər.

Hər il təntənə ilə qeyd olunan Roş-Ha-Şana yeniliyi, mənəvi saflığı və xeyirxahlığı təcəssüm etdirir. Qoy bu bayram hamınızın həyatına xoş ovqat, ailələrinizə səadət və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2019-cu il*

# Türkmənistanın Prezidenti zati-aliləri cənab Qurbanqulu Berdiməhəmmədova

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Türkmənistan əlaqələri qarşılıqlı hörmət, etimad və dəstək prinsipləri ilə səciyyələnir. İnanıram ki, dövlətlərarası münasibətlərimiz və əməkdaşlığımız xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə, hörmətli Qurbanqulu Məlikquliyeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2019-cu il*

# Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona

Hörmətli cənab Prezident!

Fransa Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin inkişafında və möhkəmləndirilməsində Jak Şirakın böyük xidmətləri olmuşdur.

Prezident Heydər Əliyevi Prezident Jak Şirak ilə möhkəm dostluq münasibətləri bağlayırdı. Onların görüşləri, aparılmış müzakirələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf xəttini müəyyən etmişdir. Prezidentlərin birgə səyləri sayəsində Azərbaycan ilə Fransa arasında dostluq və əməkdaşlıq münasibətləri böyük inkişaf yolu keçmişdir.

Prezident Jak Şirakla çoxsaylı görüşlərimi ən xoş təəssüratlarla xatırlayıram. Bu görüşlər Azərbaycan-Fransa əlaqələrinin hərtərəfli inkişafına mühüm təkan vermişdir.

Azərbaycan-Fransa münasibətlərinin inkişafında xüsusi xidmətlərinə görə Jak Şirak ölkəmizin ən yüksək ordeni olan "Heydər Əliyev" ordeni ilə təltif olunmuş və bu orden mənim tərəfimdən Jak Şiraka təqdim edilmişdi.

Bu ağır itkinin kədərini bölüşür, şəxsən öz adımdan və Azərbaycan xalqı adından Sizə, bütün Fransa xalqına, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2019-cu il*

# Daxili İşlər naziri Daxili Qoşunların Lənkəranda və Cəlilabadda yerləşən hərbi hissələrində olub




Sentyabrın 25-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov polisin fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar respublikanın cənub bölgəsindən müraciət etmiş vətəndaşları qəbul etmək üçün Lənkəran şəhərində səfərdə olub.

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan sonra nazir V.Eyvazov Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Daha sonra general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Lənkəranda yerləşən hərbi hissəsinə gedib. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib, hərbi hissənin qərargahındakı "Şərəf kitabı"nı imzalayıb.

V.Eyvazov nazir müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədovun müşayiəti ilə hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub.

Hərbi hissənin sıra meydanında şəxsi heyət qarşısında çıxış edən Daxili İşlər naziri V.Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin məqsədyönlü daxili və xarici siyasəti sayəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını qeyd edərək, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, hərbi qulluqçuların maddi-texniki təminatının, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla qeyd edib.

Şəxsi heyətə konkret tapşırıq və tövsiyələrini verən nazir sonda daxili işlər orqanlarının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, hərbi qulluqçular qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaq.

Nazir xidməti vəzifələrin və döyüş tapşırıqlarının icrasında fərqlənmiş bir qrup hərbi qulluqçunun mükafatlandırılması barədə müvafiq göstəriş verib.

Cənub bölgəsinə səfəri çərçivəsində Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Cəlilabad şəhərində yerləşən hərbi hissəsində də olub. O, burada da şəxsi heyətin hazırlıq səviyyəsi, xidməti, sosial-məişət şəraiti, maddi-texniki təminatı məsələləri ilə maraqlanıb.

Sonra Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da yüksək səviyyədə və layiqincə gələcəklərinə əminliyini ifadə edib.

# Azərbaycanın Baş Naziri Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov sentyabrın 26-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molenös ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Baş Nazir Novruz Məmmədov Dünya Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib, son illər bu münasibətlərin daha da inkişafından məmnunluğunu ifadə edib.

Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Bankının Baş icraçı direktoru ilə cari ilin yanvarında Davosda keçirdiyi görüşü xatırladan Novruz Məmmədov orada əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsinin aparıldığını vurğulayıb.

Bu günə qədər Azərbaycan ilə Dünya Bankı arasında 50-yə yaxın layihənin reallaşdırıldığını qeyd edən Baş Nazir deyib: "Biz birgə çox önəmli layihələr üzərində işləmişik. Bu layihələrin uğurla reallaşmasında Dünya Bankının və onun regional direktorunun çox önəmli rolu olub. Əminəm ki, əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək".

Söhbət zamanı Dünya Bankı ilə Azərbaycan arasında kənd təsərrüfatı, təhsil, səhiyyə sahələrində əməkdaşlığın perspektivlərinə, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin yaradılması istiqamətində infrastruktur layihələrinin icrasının dəstəklənməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Bakıda "Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar" adlı konfrans keçirilib






Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) yaradılmasının 20 illik yubileyi çərçivəsində sentyabrın 26-da fondun təşkilatçılığı, Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) tərəfdaşlığı və Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə Bakıda "Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə institusional investorlar üçün müsbət təsirli investisiyalar bazarında ən son yeniliklər, investisiya mühiti, bu sahədə mövcud çağırış və imkanlar kimi məsələlər müzakirə edilib.

Son 10 ildə institusional investorlar arasında müsbət təsirli investisiyalara olan maraq hədsiz sürətlə artır. Bu tip investisiyalarda institusional investorlar idarə edilə bilən risklərlə yüksək gəlirlilik qazanmaqla yanaşı, bu növ investisiyalar vasitəsilə sosial və ətraf mühitə müsbət təsiretmə imkanına malik olurlar.

Konfrans müsbət təsirli investisiyaların mahiyyəti, onların maliyyə bazarları və alətlərinə təsiri, institusional investorlar tərəfindən bu investisiyaların strateji inteqrasiyası və tətbiqi, müsbət təsirli investisiyaların ölçülməsi və hesabatlılığı, bu investisiyalar üçün mövcud siyasət və qaydalar, iqlim dəyişikliyi məsələlərinə investisiyalar kimi mövzuları əhatə edən 6 sessiyadan ibarət olub.

ARDNF-in icraçı direktoru Şahmar Mövsümov müsbət təsirli investisiyaların əhəmiyyətini vurğulayaraq deyib: "Uzunmüddətli investor olaraq biz inanırıq ki, dəyər yaratma və davamlılıq bizim investisiya strategiyalarımızın əsas təməlini təşkil etməlidir və bu hədəflərə çatmaq üçün müsbət təsirli investisiyalar böyük potensiala malikdir. Təşkil etdiyimiz bu konfransın uzunmüddətli institusional investorların bu sahədə məlumatlılığının artırılmasında mühüm mərhələ olacağına inanırıq".

Beynəlxalq Maliyyə Korporasiyasının iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankes isə bildirib: "60 ildən artıqdır ki, IFC müsbət təsirlərə səbəb olan investor kimi çıxış edir. Fəaliyyət göstərdiyimiz sahələrdə tərəfdaşlarımızla birgə sosial və ekoloji mənfəət naminə investisiya qoyuluşunun etimad və şəffaflığını artırmaq üçün həyata keçirilən səylərə rəhbərlik edirik. Hazırda artan sayda investor və şirkətlərin cəmiyyət üçün müsbət nəticə əldə etmək istiqamətində öz biznes modellərini və investisiya strategiyalarını uzlaşdırmaq niyyətlərini görməkdən məmnunuq. Azərbaycan Respublikası Dövlət Neft Fondu inkişaf etməkdə olan iqtisadiyyatlardan IFC-nin Vəsaitlərin İdarə Edilməsi ("Asset Management Company") şirkətinin idarə etdiyi aktivlərə investisiya etmiş ilk investordur. ARDNF-ə ümumi missiyamıza sadiq qaldığına görə minnətdarlığımızı bildirmək istərdik".

Konfransda aparıcı suveren fondların, pensiya fondlarının, beynəlxalq maliyyə təşkilatlarının nümayəndələri, beynəlxalq ekspertlər, dövlət qurumlarının, özəl sektorun, bir sıra universitetlərin təmsilçilərindən ibarət 200-dək şəxs iştirak edib.

# *Beynəlxalq Maliyyə Korporasiyası:* Dövlət Neft Fondu təcrübəli investordur və bazarda özünü doğruldub

"Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) artıq təcrübəli investordur və bazarda özünü doğruldub".



AZƏRTAC xəbər verir ki, bu sözləri ölkəmizdə səfərdə olan Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankes sentyabrın 26-da Bakıda keçirilən "Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar" adlı konfrans çərçivəsində jurnalistlərə müsahibəsində deyib.

O bildirib: "Müsbət təsirli investisiyalar hazırda dünyada çox mühüm əhəmiyyət kəsb edir və onlara institusional investorlar tərəfindən böyük diqqət yetirilir. Həmin investisiyalar həm sosial və ətraf mühitə müsbət təsiri olan, eyni zamanda, yüksək gəlir gətirən investisiyalardır ki, bu da investorların bir çox tələblərini ödəməyə imkan verir. Bunlar uzunmüddətli investisiyaları təşviq edən investisiyalardır".

Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidenti qeyd edib ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu artıq təcrübəli investordur və bazarda özünü doğruldub. Neft Fondu Beynəlxalq Maliyyə Korporasiyasının ilk investorlarındandır və yaxşı inkişaf yolu keçib. ARDNF-in fəaliyyətini müsbət və uğurlu saymaq olar.

# Maliyyə Bazarlarına Nəzarət Palatası ilə Dünya Bankının əməkdaşlığının perspektivləri müzakirə olunub

Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) ilə Dünya Bankı arasında əməkdaşlıq perspektivləri müzakirə edilib.



Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molenös, Azərbaycan üzrə direktoru Navid Həsən Naqvi və maliyyə sektoru üzrə baş mütəxəssisi, həmçinin Maliyyə Sektorunun Müasirləşdirilməsi Layihəsinin ikinci fazasının (FSMP2) rəhbəri Anjela Priqojinadan ibarət nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə qarşılıqlı əməkdaşlıq çərçivəsində görülən işlərə toxunulub, perspektiv məsələlər müzakirə olunub.

Palatanın idarə heyəti sədrinin vəzifəsini icra edən İbrahim Alışov ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən kompleks islahatların davamı kimi maliyyə sektorunun sağlamlaşdırılması və maliyyə sabitliyinin təmin olunması istiqamətində görülmüş işlər barədə məlumat verərək bu islahatların beynəlxalq nüfuzlu qurumlar və reytinq agentlikləri tərəfindən müsbət qiymətləndirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanın maliyyə bazarlarında hazırda da davam edən pozitiv trendlər Beynəlxalq Valyuta Fondunun (IMF) son hesabatında müsbət qiymətləndirilib, "Fitch", "Moody's" və "S&P" kimi reytinq agentliklərinin ölkəmiz haqqında göstəricilərində müsbət dinamika müşahidə edilib.

Ölkədə makroiqtisadi sabitliyin təmin olunması istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar barədə danışan İ.Alışov maliyyə bazarlarında dayanıqlı inkişafın mühüm ünsürlərindən biri kimi fiziki şəxslərin problemli kreditlərinin həll olunması istiqamətində ölkə başçısı tərəfindən imzalanmış "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman və bu fərman çərçivəsində sektorun sağlamlaşdırılması, effektivliyinin artırılması məqsədilə görülmüş işlər, həmin işlər nəticəsində əldə olunmuş statistik nəticələr barədə məlumat verib.

Eyni zamanda maliyyə bazarlarındakı sabitliyin nəzarətdə saxlanılması və beynəlxalq təcrübənin öyrənilərək ölkəmizdə tətbiq olunması məqsədilə MBNP-nin beynəlxalq maliyyə qurumları ilə intensiv əlaqələrin yaradılmasına xüsusi önəm verdiyi vurğulanıb. Belə ki, MBNP-nin Bazel Komitəsinin Bazel Konsultativ Qrupuna üzv qəbul edildiyi, 40-dan çox beynəlxalq təşkilat və xarici dövlətin nəzarət orqanları ilə məhsuldar əməkdaşlığın həyata keçirildiyi, bu çərçivədə Azərbaycanın daşınar əmlakın yüklülüyünün dövlət reyestri sahəsində təkmil təcrübəsinin Gürcüstan tərəfindən öyrənilərək tətbiq edilməsi istiqamətində işlərin aparıldığı, o cümlədən Qırğızıstanın bu təcrübədən yararlanmaqda maraqlı olduğu diqqətə çatdırılıb.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru S.Molenös MBNP-nin qlobal bazarlarda enerji daşıyıcılarının qiymətlərinin kəskin azalması nəticəsində maliyyə sektorundakı böhran fonunda yaradılmasına baxmayaraq, qısa müddət ərzində çox böyük uğurlar əldə etdiyini vurğulayaraq sektora yönəlmiş islahatların makroiqtisadi sabitliyin və maliyyə inklüzivliyinin təmin olunmasında çox böyük əhəmiyyəti olduğunu qeyd edib. O, ümumilikdə MBNP tərəfindən həyata keçirilmiş tədbirlərin Dünya Bankı tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

# Çin Xalq Respublikasının yaradılmasının 70 illiyi münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib





Sentyabrın 26-da Çinin Azərbaycandakı səfirliyi milli bayram - Çin Xalq Respublikasının yaradılmasının 70-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra Çinin Azərbaycandakı səfiri xanım Qo Min çıxış edərək ölkəsinin 70 ildə keçdiyi inkişaf yolundan danışıb, iqtisadi və mədəni sahələrdə böyük tərəqqiyə nail olunduğunu söyləyib. O deyib ki, bu gün Çin dünyanın ikinci ən böyük iqtisadiyyatıdır. Çin hakimiyyəti ölkənin modernləşməsi üçün bütün səyləri göstərir. Hazırda Çin dünyanın 130-dan çox ölkəsinin ticarət tərəfdaşıdır və BMT Nizamnaməsinin bütün şərtlərini yerinə yetirir. Ölkə, eyni zamanda dünyada sülhməramlı missiyaya böyük töhfə verir.

2019-cu ilin aprelində Prezident İlham Əliyevin Çinə səfərini xatırladan səfir qeyd edib ki, bu səfər ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verib. Azərbaycan ilə Çinin münasibətləri sağlam təməl üzərində qurulub. Çin Azərbaycanı yaxın dost, etibarlı tərəfdaş kimi qəbul edir. Ölkələrimiz arasında münasibətlər dinamik inkişaf yolundadır. Diplomat bu əlaqələrin gələcəkdə daha da güclənəcəyinə əminliyini ifadə edib.

Rəsmi qəbulda çıxış edən Milli Məclisin Sədri Oqtay Əsədov Azərbaycan Prezidenti adından Çin xalqını təbrik edib, sülh və firavanlıq arzularını çatdırıb.

Qədim tarixə malik Çinin bu gün dünyada böyük nüfuza malik olduğunu vurğulayan Milli Məclisin Sədri əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ikitərəfli, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, Çin və Azərbaycanın dövlət rəhbərləri arasında mehriban münasibətlər qarşılıqlı əlaqələrin inkişafına geniş yol açır. Hər iki ölkənin hakim partiyaları arasında sıx əlaqələr qurulub. Qarşılıqlı əlaqələrin möhkəmlənməsində parlamentlərin də rolu böyükdür.

Milli Məclisin Sədri deyib ki, iki ölkə arasında bir çox sahələrdə - iqtisadi, siyasi, humanitar sahələrdə getdikcə genişlənən əməkdaşlıq məmnunluq doğurur. Xüsusən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Çinin dəyişməz mövqeyi ölkəmiz üçün olduqca vacibdir.

Oqtay Əsədov ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib.

Tədbir bədii hissə ilə davam edib.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, diplomatlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Bütün üzv dövlətlərin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirmələri çox vacibdir

“Terrorizm və bununla əlaqəli cinayətkar fəaliyyətlər, beynəlxalq sülhə və təhlükəsizliyə, insan hüquqları və əsas azadlıqlarından sərbəst istifadə edilməsinə, o cümlədən bütün üzv dövlətlərin siyasi müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə ciddi təhlükə olmaqda davam edir. Bu cür fəaliyyətlər sosial və iqtisadi inkişafa da mane olur”.

AZƏRTAC xəbər verir ki, bu fikri BMT Təhlükəsizlik Şurasının Nazirlər Debatındakı çıxışında Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov bildirib.

Qeyd edib ki, terrorizm ən ağır cinayətlərdən biridir, buna görə də pislənilməli və bunu törədənlər mühakimə olunmalıdır. Terrorçuların müdafiə edilməsi və ideallaşdırılması hallarına yol verilməməlidir. “Azərbaycanın həssas coğrafi mövqeyi və bölgədəki həll olunmamış münaqişələrin davam etməsi, üstəlik hamıya məlum olan etnik təmizləmə və ölkəmin suveren ərazilərinin işğalı, terrorçuluq da daxil olmaqla transsərhəd təhlükələrin səviyyəsini yüksəldir. 1980-ci illərin sonundan etibarən, əsassız və qanunsuz ərazi iddialarını həyata keçirmək üçün bir vasitə və müharibə üsulu olaraq, Azərbaycana qarşı dəfələrlə, minlərlə vətəndaşın ölümünə səbəb olan xaricdən yönləndirilmiş terror hücumları həyata keçirilib”, - deyə nazir vurğulayıb.

Elmar Məmmədyarov qeyd edib ki, terrorizmin yayılmasına səbəb olan bütün amillərin aradan qaldırılmasının vacibliyini dərk etməklə yanaşı, dünyanın müxtəlif yerlərində münaqişələrin həlli istiqamətindəki səyləri gücləndirmək vacibdir. Silahlı münaqişə bölgələri, xüsusən də xarici hərbi işğal altında olan ərazilər, terrorçulara və mütəşəkkil cinayətkar qrup və şəbəkələrə təbii sərvətlərin istismarı, narkotik vasitələrin və mədəni sərvətlərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması və digər əlaqəli cinayətlərdən yararlanmaq üçün əlverişli şərait yaradır.

O deyib: “Əməkdaşlığın və əlaqələndirmənin inkişaf etdirilməsi və üzv dövlətlərin beynəlxalq terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizədə imkanlarının gücləndirilməsi üçün Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq, regional və subregional təşkilatlar tərəfindən əhəmiyyətli səylər göstərildiyini təqdir edirik. Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvü kimi Azərbaycan Respublikası dövlətlərin suveren bərabərliyi və ərazi bütövlüyü prinsiplərinə uyğun olaraq bu çoxtərəfli platforma çərçivəsində əməkdaşlığın davam etdirilməsində və ikitərəfli əsasda MDB üzv dövlətləri ilə qarşılıqlı faydalı iqtisadi, siyasi, hüquqi və humanitar əlaqələrin inkişafında maraqlıdır. Dialoq tərəfdaşı kimi Azərbaycan dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörmət kimi dəyərlərə/normalara əsaslanan Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) məqsəd və prinsiplərini bölüşür və BMT ilə ŞƏT arasında davamlı əməkdaşlığı tam dəstəklədiyini bir daha izhar edir.

Azərbaycan regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi, terrorizm, ekstremizm və separatizm, habelə narkotik ticarəti və əlaqəli cinayətkarlığa qarşı mübarizə aparılması, o cümlədən qarşılıqlı maraq və narahatlıq doğuran digər sahələrdə regional əməkdaşlığın təşviq edilməsi üçün ŞƏT ilə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməkdən məmnundur.

Birləşmiş Millətlər Təşkilatı və regional təşkilatlar arasında əməkdaşlıq Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinin təşviq edilməsi baxımından zəruridir. Bir sıra hallarda aydındır ki, regional və subregional təşkilatlar bu xüsusda əvəzedilməz mexanizmlərdir.

Bununla yanaşı, ciddi problemlər hələ də mövcuddur. Regional təşkilatlar öz bölgələrinin qarşılaşdıqları təhdid və çətinlikləri dərk etmək bacarığına malik olsalar da, heç də hamısı, onlara üzv dövlətlərin qanunla müəyyən edilmiş müvafiq öhdəliklərinə əməl etmələrini təmin etmək qabiliyyəti, siyasi iradəsi və institusional potensialına sahib deyillər.

Hər şeydən əvvəl, regional təşkilatlar beynəlxalq hüququ kobud şəkildə pozan və cəzasızlıq mədəniyyətini təbliğ edənlər tərəfindən sui-istifadə olunmaları hallarına yol verməməlidirlər. Bütün üzv dövlətlərin beynəlxalq öhdəliklərinə əməl etmələri və BMT Nizamnaməsinin tələb etdiyi kimi, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələri yerinə yetirmələri çox vacibdir. Onlar, həmçinin terror və əlaqəli cinayətkar fəaliyyətlərin, xüsusilə də hər hansı bir bəhanə və ya sipər altında, bilavasitə və ya dolayı yolla dəstəklənməsi və ya maliyyələşdirilməsi üçün öz ərazilərinin istifadə edilmədiyindən əmin olmalıdırlar”.

# Dünyanın beynəlxalq hüquqa hörmət edilməsinə həmişəkindən daha çox ehtiyacı var

“Son iqtisadi, sosial və ekoloji göstəricilər nümayiş etdirir ki, tərəqqi və inkişaf modelləri dəyişdirilməli və uyğunlaşdırılmalıdır. Silahlı münaqişələr, təcavüzkar ekspansionist siyasət, ətraf mühitin deqradasiyası, insan haqlarının pozulması, maliyyə böhranları, habelə terror, separatizm, transmilli mütəşəkkil cinayətkarlıq və ekstremizm kimi digər təhdidlər dünyada milyonlarla insana təsir etməkdə davam edir. Dünyanın həmişəkindən daha çox beynəlxalq hüquqa hörmət edilməsinə və buna riayət olunmasını təmin edəcək effektiv qlobal institutlara ehtiyacı var. Bu baxımdan Qoşulmama Hərəkatının rolu son dərəcə vacibdir”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının Nazirlər Konfransında çıxışı zamanı deyib.

Nazir bildirib ki, bu gün Qoşulmama Hərəkatının qarşısında duran əsas vəzifə qəbul edildiyi vaxtda olduğu kimi, aktuallığını davam etdirən təməl prinsiplərini təşviq etmək və dəstəkləməklə hərəkatın rolunu geosiyasi mənzərədəki yeni reallıqlara uyğunlaşdırmaqdır.

Dünyanın bu gün üzləşdiyi sülh və təhlükəsizliyə qarşı təhdidlər beynəlxalq hüquqi sistemin gücləndirilməsinə və münaqişələrin qarşısını almaq və həll etmək üçün bütün səviyyələrdə ikiqat səylər göstərməyə çağırır. Bu xüsusda, dövlətlərarası münasibətlərdə rəhbər tutulan beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, xüsusilə də dövlətlərin suverenliyi və ərazi bütövlüyünə və onların beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət prinsiplərinə ciddi riayət olunması vacibdir.

“Təəssüf ki, Ermənistanla Azərbaycan arasında münaqişənin həlli ilə bağlı bu dəfə də sizinlə bölüşmək üçün yaxşı xəbərim yoxdur. Ermənistan, göründüyü kimi, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair məcburi xarakter daşıyan tələblərin əks olunduğu qətnamələrinə məhəl qoymamaqda davam edir. Bu ölkə beynəlxalq ictimaiyyətin əvvəlki xəbərdarlıq və qınaqlarına baxmayaraq, o cümlədən münaqişənin siyasi həlli istiqamətində davam edən səylər fonunda, Azərbaycanın işğal olunmuş ərazilərinin müstəmləkəyə çevrilməsi və ilhaqını möhkəmlətmək məqsədilə qəsdən qeyri-qanuni fəaliyyət həyata keçirilməkdədir. Bunlara digərləri ilə yanaşı, məskunlaşdırma, tarixi və mədəni irsin məhv edilməsi və mənimsənilməsi, işğal olunmuş ərazilərdə aktivlərin, təbii sərvətlərin və digər maddi nemətlərin istismarı və talan edilməsi və qanunsuz ticarəti daxildir”, - deyə nazir bildirib.

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan 2019-cu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının növbəti zirvə toplantısına evsahibliyi etməkdən şərəf duyur. Qoşulmama Hərəkatının üzv dövlətlərinin Bakı Sammitində ən yüksək səviyyədə iştirak etmək istəkləri bizi çox ruhlandırır. Bu, şübhəsiz ki, Bakıda hərəkatın müharibə əleyhinə və sülhü sevən bir qüvvə rolunu daha da artırmasına zəmin yaradacaq məhsuldar və nəticəyönümlü müzakirələrimizə öz töhfəsini verəcək.

# *Hikmət HACIYEV:* “Münaqişənin Azərbaycanın ərazi bütövlüyündən kənar həlli modeli mövcud deyil”

“Ermənistanın baş naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin siyasi, hüquqi və tarixi aspektlərini BMT tribunasından tamamilə təhrif olunmuş şəkildə təqdim edib”.



Bu fikri AZƏRTAC-a Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın BMT Baş Assambleyasının ümumi müzakirələr hissəsində çıxışı ilə bağlı açıqlamasında bildirib.

Hikmət Hacıyev deyib ki, bu ilin avqust ayında Azərbaycanın işğal altındakı Xankəndi şəhərində çıxış edərək, Azərbaycanın işğal edilmiş ərazilərinin anneksiyasına çağıran və bununla, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə ciddi zərbə vuran Ermənistan rəhbərliyi indi BMT tribunasından “sülhpərvər” görünməyə, beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd göstərir.

Birincisi, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissəsidir. 1921-ci il iyulun 5-də Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması barədə qərar vermişdir. Ermənilərin yalan iddialarına baxmayaraq, burada “Dağlıq Qarabağın Azərbaycana verilməsi” kimi ifadədən istifadə olunmamışdır.

Keçən əsrin 80-ci illərindən başlayaraq Ermənistan Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə (DQMV) açıq iddialar irəli sürmüş, zorakı əməlləri və təcavüzkar separatizmi fəal şəkildə dəstəkləmişdir.

Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağın birtərəfli qaydada ayrılmasının sovet qanunlarına zidd olması hələ o zaman ali konstitusiya səviyyəsində təsdiqlənmişdir. Azərbaycan müstəqilliyini bərpa etdikdə, həmin dövrdə tətbiq olunan qanunvericiliyə əsasən, Dağlıq Qarabağ aydın şəkildə Azərbaycan ərazilərinin tərkib hissəsi hesab olunurdu. Dağlıq Qarabağın “Ermənistana birləşdirilməsi” və ya “müstəqilliyi”nin əldə edilməsi ilə bağlı Ermənistanın iddiaları beynəlxalq hüquqda qəbul edilmiş uti possidetis prinsipinə ziddir və bu səbəbdən beynəlxalq hüquq çərçivəsində əsassızdır.

Uti possidetis prinsipi aydın şəkildə müəyyən edir ki, Azərbaycan müstəqilliyini bərpa etməmişdən öncə sovet qanunları ilə müəyyən edilmiş sərhədləri daxilində müstəqilliyini elan edib.

İkincisi, Ermənistanın baş naziri BMT tribunasından danışdığı halda, BMT Nizamnaməsi əsasında ölkəsinin öz üzərinə götürdüyü öhdəlikləri ciddi şəkildə pozması faktının üzərindən sükutla keçir.

Xatırladaq ki, BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinə əsasən, “bütün dövlətlər digər dövlətin ərazi bütövlüyü və ya suverenliyinə qarşı” gücdən istifadə və ya gücdən istifadə ilə hədələməkdən çəkinməlidir”.

İkinci Dünya müharibəsinin yekunlarına dair Beynəlxalq Nürnberq Məhkəməsinin qərarları, BMT Nizamnaməsinin “Sülhə təhlükələr, sülhün pozulması, təcavüz aktları ilə bağlı fəaliyyət” adlanan VII fəslinə əsasən işğal və hərbi təcavüz ciddi beynəlxalq cinayət kimi müəyyən olunmuşdur.

Ermənistan hərbi gücdən istifadə edərək, Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonunu işğal etmiş, bu ərazilərdə Azərbaycan əhalisinə qarşı qanlı etnik təmizləmə törətmişdir. Bu siyasətin nəticəsində bir milyondan artıq soydaşımız hələ də qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Həmçinin Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində beynəlxalq humanitar hüquqa zidd olaraq demoqrafik tərkibin dəyişdirilməsi, Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələrinin məhv edilməsi istiqamətində məqsədyönlü fəaliyyət aparır.

BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı gücdən istifadəni, Azərbaycanın ərazilərinin işğalını, mülki insanlara qarşı hücumları və Azərbaycanın məskunlaşmış ərazilərinin bombardman edilməsini pisləyir, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edir. Həmçinin BMT Təhlükəsizlik Şurasının qətnamələrində güc tətbiq edərək ərazinin əldə olunmasının qəbuledilməzliyi vurğulanır və işğalçı qüvvələrin tam və qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarılması tələb olunur.

Ermənistan BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymur.

Onu da xatırladaq ki, BMT Nizamnaməsinin 25-ci bəndinə görə, BMT üzv dövlətləri Təhlükəsizlik Şurasının qərarlarını bu nizamnaməyə əsasən qəbul etməli və həyata keçirməlidirlər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə vasitəçiliyi həyata keçirən ATƏT-in Minsk qrupunun üzvlərinin mandatının əsasını da Təhlükəsizlik Şurasının müvafiq qətnamələri təşkil edir. Beynəlxalq ictimaiyyət beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır və dəstəkləyir.

Üçüncüsü, Ermənistan rəhbərliyi bu münaqişənin Azərbaycan və Ermənistan arasında ərazi münaqişəsi olmadığını iddia edir və bunun insan hüquqları məsələsi olduğunu bildirir. BMT Təhlükəsizlik Şurasının qətnamələri, Avropa İnsan Hüquqları Məhkəməsinin “Çıraqov və digərləri Ermənistana qarşı” işi üzrə qərarı açıq şəkildə sübut edir ki, bu münaqişənin fundamental əsasını güc istifadə edərək ərazilərin işğalı təşkil edir. Avropa İnsan Hüquqları Məhkəməsinin verdiktinə görə, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejim Ermənistanın siyasi, hərbi, maliyyə və digər dəstəyi sayəsində mövcuddur. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində hərbi mövcudluğu və işğalı davam etdirməsi münaqişənin əsl mahiyyətini açıq şəkildə sübut edir.

Bununla bərabər, əgər Ermənistan rəhbərliyi bu münaqişəni insan hüquqları kontekstində təqdim etmək istəyirsə, onda ölkəsinin bir milyondan artıq azərbaycanlıya qarşı törətdiyi qanlı etnik təmizləməni və onların fundamental hüquqlarının pozulmasını etiraf etmiş olur. İnsan hüquqları universal xarakter daşıyır. İşğal və hərbi təcavüz yolu ilə bir milyondan artıq azərbaycanlının fundamental hüquqlarını pozduğu halda, Ermənistanın insan hüquqlarından danışması riyakarlıq və cəfəngiyatdır.

Dördüncüsü, Ermənistan rəhbərliyi münaqişənin həllinin Ermənistan, Dağlıq Qarabağ və Azərbaycan üçün məqbul olan düstur əsasında həll edilməli olduğunu deyir. Münaqişənin tərəfləri Ermənistan və Azərbaycandır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları vardır.

Azərbaycanın heç bir dövlətə qarşı ərazi iddiası yoxdur. Münaqişənin Azərbaycan üçün məqbul olan həlli BMT Nizamnaməsinə, beynəlxalq hüquqa və ədalətə əsaslanır və bu mövqeyi beynəlxalq ictimaiyyət dəstəkləyir. Münaqişənin həlli üçün Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, hərbi işğala son qoyulmalı, azərbaycanlı məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarının Azərbaycanın sərhədləri daxilində sülh və təhlükəsizlik şəraitində birgə yaşamasını nəzərdə tutan özünüidarəetmə modeli müəyyən olunmalıdır.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin təkrarən istinad etdiyi 2019-cu il 9 mart tarixli bəyanatda münaqişənin həlli üzrə yol xəritəsi təsvir olunmuşdur.

Münaqişənin Azərbaycanın ərazi bütövlüyündən kənar həlli modeli mövcud deyil. Münaqişənin tezliklə həlli regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunmasına, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hazırda ağır şəraitdə yaşayan erməni icmasının güzəranının yaxşılaşmasına, Ermənistanın özünün inkişafına gətirib çıxara bilər.

Nəhayət, Ermənistan başa düşməlidir ki, Azərbaycan ərazisinin hərbi işğalı münaqişənin həlli deyil və heç vaxt Ermənistanın arzuladığı siyasi nəticəni verməyəcək.

Ermənistan vaxtı hədər vermək və ilhaqçı siyasətinə bəraət qazandırmaq üçün əsassız tarixi, populist və demaqoqik arqumentlər axtararaq öz xalqını və beynəlxalq ictimaiyyəti çaşdırmaq əvəzinə, münaqişənin həlli prosesində konstruktiv şəkildə iştirak etməli, beynəlxalq öhdəliklərini yerinə yetirməli və qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalıdır.

# Azərbaycanın Xarici İşlər naziri Nyu Yorkda bir sıra görüşlər keçirib

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə nazir Elmar Məmmədyarov Mariya P.Buriçə Avropa Şurasının (AŞ) Baş katibi seçilməsi münasibətilə təbriklərini çatdırıb, onu hazırkı vəzifəsində Azərbaycana səfərə dəvət edib.

Görüşdə Azərbaycanın Avropa Şurası və onun institutları ilə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb. Mövcud əməkdaşlığın daha da dərinləşdirilməsi üçün birgə səylərin davam etdirilməsindən razılıq ifadə olunub.

Nazir Elmar Məmmədyarov Avropa Şurasının Baş katibinə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Xarici İşlər nazirləri arasında Nyu Yorkda keçirilmiş son görüş barədə məlumat verib. Bu xüsusda, münaqişənin tezliklə sülh yolu ilə həlli, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərimizdən çıxarılması və azərbaycanlı məcburi köçkünlərin doğma yurd-yuvalarına geri qayıtmasının vacibliyi vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də müzakirələr aparılıb.

* * *

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Gürcüstanın Xarici İşlər naziri David Zalkaliani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə nazirlər iki ölkə arasında mehriban qonşuluq şəraitində inkişaf etdirilən qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərinin məmnunluq doğurduğunu ifadə ediblər.

Nazirlər bölgədə sülh, təhlükəsizlik və dayanıqlı inkişafa ciddi hədə təşkil edən həlli uzadılmış münaqişələrin sülh yolu ilə həlli istiqamətində səylərin gücləndirilməsinin vacibliyini vurğulayıblar. Nazir David Zalkaliani Gürcüstanın Abxaziya və Tsxinvali/Cənubi Osetiya bölgələrindəki münaqişənin həlli üzrə aparılan danışıqlardakı vəziyyət barəsində məlumat verib. Öz növbəsində nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Nyu Yorkda ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Xarici İşlər nazirləri arasında keçirilən görüş barədə həmkarını məlumatlandırıb. Tərəflər münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri, dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət və ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini bir daha vurğulayıblar.

Nazirlər Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə müvafiq Dövlət Komissiyalarının fəaliyyəti barədə fikir mübadiləsi aparıblar və dövlət sərhədinin delimitasiyasının qısa müddətdə yekunlaşmasında maraqlarını ifadə ediblər.

Tərəflər, həmçinin “Azərbaycan-Gürcüstan-Türkiyə” üçtərəfli platforması çərçivəsində əməkdaşlığın genişləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar. GUAM çərçivəsində əməkdaşlıq məsələlərini nəzərdən keçirən nazirlər BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində keçiriləcək GUAM Xarici İşlər nazirlərinin görüşünə dair məsələləri müzakirə ediblər.

Görüş əsnasında, həmçinin qlobal təhlükəsizlik gündəliyindəki bir sıra məsələlər üzrə fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Nyu Yorkda BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində İrlandiyanın Avropa məsələləri üzrə naziri Helen Makinti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli münasibətlərin hazırkı səviyyəsi müzakirə edilib, əməkdaşlığın inkişafı üçün potensialın mövcudluğu vurğulanıb.

Nazirlər beynəlxalq gündəlikdə duran məsələlər üzrə fikir mübadiləsi aparıb, bu xüsusda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək məsələlərinə toxunublar.

* * *

BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Bəhreyn Krallığının Xarici İşlər naziri Şeyx Xalid bin Ahmed Mohamed Al Xalifa ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazirlər Azərbaycan ilə Bəhreyn arasında mövcud ikitərəfli əməkdaşlıq münasibətlərini müzakirə edib, əlaqələrin daha da dərinləşdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Söhbət zamanı bu il oktyabrın 25-26-da Bakıda keçiriləcək Qoşulmama Hərəkatının Zirvə görüşü və Azərbaycanın qarşıdakı üç il ərzində bu hərəkata sədrliyi məsələlərinə dair fikir mübadiləsi aparılıb. Nazirlər, həmçinin regional və qlobal təhlükəsizlik məsələləri, eləcə də BMT Baş Assambleyasının 74-cü sessiyasının gündəliyindəki digər məsələləri müzakirə ediblər.

# YAP böyük güc, böyük iradədir

## Əli ƏHMƏDOV: “Azərbaycan gəncliyi Ulu Öndər Heydər Əliyevin ideyalarını, Prezident İlham Əliyevin siyasi xəttini layiqincə davam etdirmək potensialına malikdir”

Sentyabrın 26-da Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının Abşeron rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin və fəallarının iştirakı ilə müşavirə keçirilib. Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Xırdalan şəhərində ucaldılmış abidəsini ziyarət edərək gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.







### Abşeron böyük inkişaf və quruculuq yolu ilə inamla addımlayır

Daha sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Abşeron rayonunun Qarabağ müharibəsi əlillərindən ibarət futbol klubunun üzvləri ilə görüşdülər. YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov dövlətin Qarabağ müharibəsi əlillərinə və veteranlarına göstərdiyi qayğıdan bəhs etdi və onların daim Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu bildirdi.

Müşavirədən əvvəl YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov partiyanın bir qrup fəal gənc üzvü ilə görüşdü. Tədbirdə giriş sözü ilə çıxış edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirdi ki, Prezident İlham Əliyevin müdrik siyasəti və fəaliyyəti nəticəsində bütün sahələrdə qazanılmış uğurlar abşeronluları da ürəkdən sevindirir. Rayonda həyata keçirilən tədbirlərdən danışan RİH başçısı əldə olunan nailiyyətlər barədə məlumat verdi. Bildirdi ki, respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkənin bütün bölgələri kimi, Abşeron rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Prezident İlham Əliyevin təşəbbüsü və qayğısı sayəsində son illərdə rayon ərazisində olduqca mühüm infrastruktur layihələri həyata keçirilmiş, möhtəşəm tikililərin təməli qoyulmuş və uğurla başa çatdırılmışdır. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri və yol qovşaqları, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişmişdir. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlamışdır.

Qeyd olundu ki, Prezident İlham Əliyevin apardığı siyasətin mahiyyətinə uyğun olaraq rayonda qarşıya qoyulmuş başlıca vəzifələr əhalinin sosial rifah halının yaxşılaşdırılması, abadlıq-quruculuq işlərinin daha sürətlə və keyfiyyətlə aparılması, təhsil-səhiyyə müəssisələrinə diqqətin artırılması, xidmət və infrastruktur sahələrində işin müasir dövrün tələblərinə uyğunlaşdırılmasıdır. Eyni zamanda dövlət gənclər siyasəti ilə bağlı məsələlər Abşeron rayonunda diqqət mərkəzində saxlanılır. Rayonun ictimai və sosial-iqtisadi həyatında gənclərin fəallığının daha da artırılması üçün lazımi tədbirlər həyata keçirilir.

### Gənclər cəmiyyətin aparıcı qüvvəsidir

Tədbirdə çıxış edən Baş nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan gəncliyi cəmiyyətimizin aparıcı qüvvəsini təşkil edir. Onun sözlərinə görə, Azərbaycan hökumətinin əsas məqsədi gənc nəslin arzuladığı cəmiyyəti onlara təqdim etməkdir. Bu ümumi məqsədə nail olmaq üçün var gücümüzlə çalışırıq. Bunun üçün də gənc nəslin daha yaxşı təhsil alması və zəngin biliklərə yiyələnməsi tələb olunur. Yaxşı yaşamağın, cəmiyyətin layiqli vətəndaşı olmağın yeganə yolu zəngin, dərin biliklərə yiyələnməkdir. Baş nazirin müavini deyib: “Ölkədə gənclərin yaxşı təhsilə sahib olmaları üçün bütün imkanlar yaradılıb. Son illər Azərbaycanda təhsil sahəsində böyük islahatlar həyata keçirilir. İnanırıq ki, Azərbaycanın gələcəyi daha parlaq olacaq. Çünki bu parlaq gələcəyi yaratmağa qadir olan çox ləyaqətli gənclərimiz yetişib. Azərbaycan gəncliyi Ulu Öndər Heydər Əliyevin ideyalarını, Prezident İlham Əliyevin siyasi xəttini layiqincə davam etdirmək potensialına malikdir”.

Əli Əhmədov Azərbaycanın keçdiyi inkişaf yolu ilə bağlı gənclərə geniş məlumat verdi, uğurlu siyasət nəticəsində ölkəmizi daha firavan gələcək gözlədiyini diqqətə çatdırdı. Müstəqilliyimizin ilk illərindən danışan Əli Əhmədov dedi ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, inflyasiyanın səviyyəsi 1600 faiz idi, ölkədə xaos, anarxiya baş alıb gedirdi. Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalqımız nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Həmin dövrdə Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran Əli Əhmədov Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirdi. Baş nazirin müavini qeyd etdi ki, Ulu Öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoydu. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” isə ölkəmizin inkişafında mühüm rol oynadı. Belə ki, Ümummilli Liderimizin müəllifi olduğu neft strategiyası Azərbaycanın hərtəfli inkişafının bünövrəsini təşkil edən YAP Sədrinin müavini bildirdi ki, bu gün Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan ötən illər ərzində böyük inkişaf yolu keçib, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb.

Əli Əhmədov qeyd etdi ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir. Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkəmizdə əməkhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş nazirin müavini bildirdi ki, qayğıya ehtiyacı olan insanlara dövlət lazımi diqqət göstərir. Onun sözlərinə görə, hər bir ailə bu artımlardan faydalanır. Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq.

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söylədi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə gəlincə, Baş nazirin müavini dedi ki, ölkəmiz münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır. Onun sözlərinə görə, işğalçı Ermənistan münaqişənin həllini uzatmağa çalışır: “Azərbaycanın güclü ordusu var və torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Beynəlxalq hüquq da bizim tərəfimizdədir. Amma dövlətimiz qan tökülməsini istəmir. Çünki müharibə insan itkisi, dağıntı, fəlakət deməkdir. Ona görə də sülh imkanları tükənməyibsə, bu imkanlardan sona qədər istifadə olunmalıdır. Əlbəttə ki, sülh danışıqları nəticə verməsə, Azərbaycan dövləti öz torpaqlarını işğaldan azad etmək haqqından istifadə edəcək”.

Azərbaycanın dünyanın ən uğurlu gənc dövlətlərindən biri olduğunu deyən Əli Əhmədovun fikrincə, bugünkü gənclik müstəqil, güclü Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur. Gənclər aparıcı qüvvə kimi cəmiyyət həyatında mühüm rol oynayırlar. Yeni Azərbaycan Partiyasının qapıları da gənclərimiz üçün həmişə açıqdır.

Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd etdi. Bu vasitələrin biri də sosial şəbəkələrdir. Xaricdə özünü mühacir adlandıranlar müəyyən qüvvələrin maraqlarına xidmət edərək ölkəmizin, dövlət rəhbərliyinin imicinə zərbə vurmağa çalışırlar. YAP Sədrinin müavini vurğuladı ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır. Gənclər bu prosesdə fəal iştirak etməlidirlər.

### YAP qarşıdakı bələdiyyə seçkilərində də böyük uğur qazanacaq

YAP Sədrinin müavini, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə ölkəmizdə gəncliyin inkişafına göstərilən diqqət və qayğıdan danışdı, Azərbaycanın gələcəyinin parlaq olduğunu bildirdi. Çünki ölkəmizdə sağlam, vətənpərvər, intelektual gənc nəsil formalaşıb. O, son illər gənclərin elm sahəsinə marağının artmasını da yüksək qiymətləndirdi.

Görüşdə çıxış edən gənclər ictimai-siyasi proseslərlə bağlı fikirlərini bildirdilər. Qeyd olundu ki, bu gün Azərbaycan gəncliyi Prezident İlham Əliyevin ətrafında sıx birləşib, dövlət başçısının həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir.

Abşeron RİH başçısı İradə Gülməmmədova bildirdi ki, abşeronlu gənclər Prezident İlham Əliyevin tövsiyə və nəsihətlərini rəhbər tutaraq bundan sonra da cəmiyyət həyatının bütün sahələrində fəal olacaq, dövlətə və dövlətçiliyə xidmət edəcəklər.

Görüşdən sonra YAP Abşeron rayon təşkilatının ərazi ilk partiya təşkilatlarının sədrlərinin və fəallarının iştirakı ilə müşavirə keçirildi. Çıxış edən Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirdi ki, bu tədbirin keçirilməsində məqsəd partiyanın yerli strukturlarının işinin daha da gücləndirilməsi ilə əlaqədardır: “YAP 750 minə yaxın Azərbaycan vətəndaşını öz sıralarında birləşdirir. Bu əhəmiyyətli siyasi ordu kimi də səciyyələndirilə bilər. Bu, sadəcə bir statistika deyil. Bu, böyük güc və böyük iradədir. Eyni zamanda bu, Azərbaycan vətəndaşlarının YAP-a, Ümummilli Lider Heydər Əliyevin ideyalarına və Azərbaycan Prezidenti, partiyamızın Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətə münasibətin ifadəsidir”.

Baş nazirin müavini bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyərək partiyanın seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirdi. YAP-ın böyük resurslarının və seçki təcrübəsinin olduğunu diqqətə çəkərək bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə etdi.

Müşavirədə bələdiyyə seçkilərinə hazırlıq və ictimai-siyasi məsələlərlə bağlı tövsiyə və tapşırıqlar verildi.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, sentyabrın 26-da Mingəçevir şəhəri, Ağdaş, Hacıqabul, Kürdəmir və Qazax rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, onların qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerindəcə həll edilib. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunacaq. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi, ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edəcək. Minimum pensiya 72 faiz artırılıb. Beləliklə, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunub. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də bundan yararlana biləcək.

Keçirilən görüşlərdə həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# BSU tələbələri ikili diplom alacaq

Bolqarıstan Respublikasının Müqəddəs Kiril və Mefodiy adına Veliko-Tırnovo Universitetinin rektoru Xristo İliev Bondjolovun rəhbərliyi ilə nümayəndə heyəti Slavyan Universitetində olub.



BSU-nun rektoru, professor Nurlana Əliyeva qonaqlara iki dost dövlət arasında əlaqələrin tarixindən, müstəqillik dönəmində münasibətlərin yeni mərhələyə daxil olmasından, Ulu Öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın mədəni əlaqələrin genişləndirilməsi sahəsində gördüyü işlərdən danışıb. Rektor Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bolqarıstanın Veliko-Tırnovo şəhərində bu ölkəninn qədim tarixini nümayiş etdirən maraqlı və cazibədar bir kompleks kimi ümumdünya mədəni irs siyahısına daxil olan Trapezitsa qalasında aparılan təmir-bərpa işləri barədə məlumat verib. Professor həmçinin Bolqarıstanın Veliko-Tırnovo Universitetində tələbə-müəllim heyəti ilə keçirdiyi görüşləri xatırladıb. O, həmin görüşdə adıçəkilən universitetdə Azərbaycan dili mərkəzinin yaradılması və seçmə fənn kimi tədris edilməsi barədə razılaşma əldə etdiklərini bildirib. Rektor, eyni zamanda Bolqarıstan Respublikasının Birinci vitse-prezidentlərinin BSU-da olmalarından söz açıb. O, Bolqarıstanın Birinci vitse-prezidenti İliyana Yotovanın BSU ilə Bolqarıstan ali məktəblərinin qarşılıqlı münasibətlərində xoşməramlı səfir kimi hər zaman dəstək verməyə hazır olduğunu da diqqətə çatdırıb.

Veliko-Tırnovo Universitetinin rektoru Xristo İliev Bondjolov öz növbəsində səmimi qarşılanmaya görə BSU-nun rektoruna təşəkkürünü bildirərək Bolqarıstanın Azərbaycanla tarixən dostluq əlaqələrinə malik olduğunu söyləyib. Rektor Bakı ilə bağlı ilk tanışlıq təəssüratını bölüşərkən Azərbaycan paytaxtının dünyanın ən müasir meqopolisləri ilə yanaşı dayanmağa layiq bir şəhər olduğunu vurğulayıb. O, Bakıda qədimliklə müasirliyin, Avropa və Şərq memarlığının yüksək harmoniyasını gördüyünü, İçərişəhərin açıq hava muzeyi kimi son dərəcə cəlbedici, Bakının inkişafına və tərəqqisinə xüsusi diqqət yetirildiyinin şahidi olduğunu bildirib. O, son illərdə tikilən memarlıq abidələrinin, müasir tipli binaların, körpülərin insanı heyrətə gətirdiyini deyib.

Azərbaycan dövlətinin təhsilə qayğısını yüksək qiymətləndirən rektor Xristo İliev Bondjolov rəhbəri olduğu universitetlə BSU arasındakı əməkdaşlığın Azərbaycan və Bolqarıstan dostluq münasibətlərində mühüm rol oynayacağını söyləyib. BSU-da bolqar dilinin və ədəbiyyatının öyrənilməsindən məmnun qaldığını qeyd edən X.İ.Bondjolov Azərbaycan xalqının tolerant, multikultural dəyərlərə sadiqliyindən danışıb. O, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Bolqarıstanda Veliko-Tırnovo şəhərinin fəxri vətəndaşı adının verilməsindən və Müqəddəs Kiril və Mefodiy adına Veliko-Tırnovo Universitetinin fəxri doktoru diplomunun təqdim olunmasından da söz açıb.

Rektorlar universitetlər arasında ikitərəfli əməkdaşlığı təsdiq edən və müəyyən öhdəlikləri özündə əks etdirən müqaviləni imzalayıblar. Müqavilənin əsas şərtlərindən biri BSU tələbələrinə ikili diplomların verilməsidir. Bundan əlavə, müqavilədə tələbə mübadiləsinin aparılması, bolqarşünaslıqla məşğul olan gənclərin adıçəkilən universitetdə təcrübə keçməsi və digər məsələlər nəzərdə tutulur.

Qonaqlar BSU-da fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, universitetin muzeyi, kitabxana ilə yaxından tanış olub, buradakı Bolqar Dili Tədris və Mədəniyyəti Mərkəzində bolqarşünaslıq üzrə təhsil alan tələbələrlə görüşüblər. Tələbələrin bolqar dilində səlis danışığını rektor Xristo İliev Bondjolov yüksək qiymətləndirib. Qonaqlar mərkəzin kitabxanasına bolqar dilində kitablar bağışlayıb.

Qeyd edək ki, qonaqların respublikamızda olacağı beş gün üçün maraqlı elmi-tədris, gəzinti-istirahət proqramı nəzərdə tutulub.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Bu il ilk dəfə Azərbaycana alıcı missiyalarının təşkilinə başlanılacaq

Cari ildə ilk dəfə olaraq Azərbaycana alıcı missiyalarının təşkilinə başlanılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 26-da Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) fəaliyyəti, “Made in Azerbaijan” brendinin təşviqi istiqamətində görülən işlər və nəzərdə tutulan tədbirlərə dair keçirilən mətbuat konfransında danışılıb.

AZPROMO-nun rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev dövlət başçısının sosial-iqtisadi inkişaf kursuna uyğun olaraq qeyri-neft məhsullarının ixracının inkişafı istiqamətində həyata keçirilən islahatlar, ixracatçılara yaradılmış əlverişli şərait, ixracın genişləndirilməsi, “Made in Azerbaijan” brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində görülən işlər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, bu ilin əvvəlindən Azərbaycan məhsulları xarici ölkələrdə keçirilən 8 beynəlxalq sərgidə nümayiş olunub. Belə ki, Azərbaycan şirkətləri Berlində “Beynəlxalq Yaşıl Həftə 2019”, “Fruit Logistica 2019”, “Prowein 2019”, Moskvada “Prodexpo 2019”, “Mosbuild 2019”, “Worldfood Moscow 2019”, Birləşmiş Ərəb Əmirliklərində “Gulfood 2019” və Çində təşkil edilmiş “Sial China 2019” beynəlxalq sərgilərində “Made in Azerbaijan” vahid ölkə stendi ilə iştirak ediblər.

Qeyd olunub ki, Azərbaycan məhsulları indiyədək 25 beynəlxalq sərgidə vahid ölkə stendi ilə təqdim edilib. Həyata keçirilən tədbirlərin davamı olaraq Azərbaycan məhsulları bu ilin sonunadək Almaniyada “Anuga 2019” və Çində təşkil olunacaq “Food and Hotel China” beynəlxalq sərgilərində nümayiş olunacaq.

Bildirilib ki, bu ilin əvvəlindən ixrac təşviqinin ödənilməsi ilə bağlı daxil olan müraciətlər əsasında sahibkarlıq subyektlərinə 7,1 milyon manat ixrac təşviqi ödənilib. İndiyədək isə sahibkarlara 15,1 milyon manat ixrac təşviqi verilib. Bu ilin ötən dövründə 6 xarici ölkəyə (Çin, Polşa, Latviya, Qətər, İsveçrə və Rusiya) 7 ixrac missiyası təşkil olunub. Ümumilikdə isə indiyədək xarici ölkələrə 31 ixrac missiyası təşkil edilib.

Diqqətə çatdırılıb ki, bu il ilk dəfə olaraq Azərbaycan ərazisinə alıcı missiyalarının təşkilinə başlanılacaq. Bu mexanizmin tətbiqi “Made in Azerbaijan” brendi ilə istehsal olunan məhsulların rəqabət qabiliyyətini artıracaq, yerli məhsulların ixracının genişləndirilməsi, eləcə də qeyri-neft istehsalının stimullaşdırılmasında mühüm rol oynayacaq. İlk alıcı missiyasının təşkili bu ilin oktyabrında şərab və digər spirtli içki məhsullarının istehsalı sahəsində həyata keçiriləcək. Belə ki, alıcı missiyada iştirak məqsədilə Rusiyadan 8 şirkət seçilib. Cari ilin sonunadək qeyri-neft sektorunun müxtəlif sahələrində Gürcüstan, Özbəkistan, Polşa, Xorvatiya və digər ölkələrin sahibkarlarından ibarət alıcı missiyalarının Azərbaycana səfəri nəzərdə tutulur.

Y.Abdullayev xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan ticarət evləri barədə məlumat verib. Bildirib ki, yerli məhsulların xarici ölkələrdə tanıdılması məqsədilə yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Ticarət Evi fəaliyyətə başlayıb. Bu ticarət evi Azərbaycan məhsullarının Körfəz ölkələrində təşviqi və satışının təşkilində əhəmiyyətli rol oynayacaq. Bundan əlavə, Azərbaycan şərab və digər spirtli içki məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi və Rusiya bazarına satışının artırılması məqsədilə bu il iyulun 8-də Rusiyanın Yekaterinburq şəhərində şərab evi açılıb. Şərab evinin daimi fəaliyyət göstərən sərgisində Azərbaycan şirkətlərinin istehsalı olan 120 çeşiddən çox üzüm və meyvə şərabları, spirtli içkilər və s. təqdim edilir. Şərab evində nümayiş olunan Azərbaycan məhsulları böyük maraqla qarşılanır. Həmçinin Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya və Çində daha 5 ticarət və 2 şərab evinin açılması nəzərdə tutulur. “Made in Azerbaijan” brendinin təşviqi, yerli məhsulların xarici bazarlarda daha çox tanıdılması, eləcə də ixracın stimullaşdırılması tədbirləri davam etdirilir.

Sonda jurnalistlərin sualları cavablandırılıb.



# Əhalinin məşğulluq probleminin həlli daim gündəmdədir

## Bu ilin əvvəlindən işlə təmin olunanların sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur

*Əvvəli 1-ci səh.*

Keçən ilki iş yerlərinin 26 faizi Bakı şəhərinin, 1,2 faizi Naxçıvan MR-in, 72,8 faizi regionların payına düşüb. Bu ilin 6 ayında isə yeni iş yerlərinin 63,6 faizi paytaxtda, 0,4 faizi Naxçıvan MR-də, 36 faizi regionlarda açılıb.

Ümumiyyətlə, son 15 ildə 2 milyon yeni iş yerinin yaradılması dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha təsdiqləyir. Məşğulluğun yüksək səviyyədə həlli üçün yeni yollardan, ehtiyat mənbələrindən istifadə olunur. Prezident İlham Əliyev Nazirlər Kabinetinin bu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir: "İş yerlərinin yaradılması üçün sərmayə qoyuluşu əsas vəzifədir. Dövlət tərəfindən yaradılan iş yerləri, sadəcə olaraq sosial xarakter alır. Biz bunu edirik və edəcəyik. Ancaq bu missiyanı özəl sektor sərmayə qoyuluşu hesabına öz üzərinə götürməlidir. Sərmayə qoyuluşu olmasa, iş yerləri necə yaradıla bilər?! Dövlət daim iş yerlərini yarada bilməz. Biz, sadəcə olaraq işsizliyin azaldılması üçün bu işləri görürük. Bildirməliyəm ki, bu il 40 min ödənişli ictimai iş yeri açılır. Mənə verilən məlumata görə, artıq 35 min insan bu il ödənişli ictimai işlərlə təmin edilib. Bu, yenə də deyirəm, sosial təşəbbüsdür, sosial dəstəkdir".

Başqa sözlə, Azərbaycanda işsizliyin azaldılması və minimal həddə saxlanması istiqamətində tədbirlər davam etdirilir. 2019-cu ilin əvvəlindən indiyədək məşğulluq xidməti orqanlarında işsiz və işaxtaran kimi 198 286 şəxs qeydiyyatdan keçib ki, onlardan 63 338 nəfəri işsiz şəxslərdir. İşlə təmin olunanların sayı 60 475 nəfər olub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 45,6 faiz çoxdur.

İnsanların işlə təmin olunması istiqamətində atılan uğurlu addımlardan biri də özünüməşğulluğun inkişaf etdirilməsidir. Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə.

Dövlət həmişə çətin vəziyyətdə yaşayan vətəndaşlara qayğı və diqqət göstərir. Lakin dövlət həm də ehtiyaclarını ödəmək üçün hər bir ailənin özünün imkanlarının yaranmasına çalışır. Özünüməşğulluq da məhz maddi çətinliyi olan ailələrin özlərinə yaxşı dolanışıq şəraiti yaratmağa imkan verir. Dövlət orqanları, yerli icra orqanları və özəl qurumların bu istiqamətdə layihələr həyata keçirmələri qarşıya məqsəd kimi qoyulub. Təqdirəlayiq haldır ki, bu sahədə uğurlu addımlar atılıb.

Qeyri neft-qaz sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatında özünüməşğulluğun inkişafı üçün xüsusilə geniş imkanlar var. Aqrar sahənin qarşısında bütün istiqamətlərdə yeni üfüqlər açılıb. Həqiqətən də kənd yerlərində çox insanlar ailələri ilə birlikdə heyvandarlıqla, quşçuluqla, arıçılıqla, bağçılıqla, tərəvəzçiliklə məşğul olurlar. Dövlət də onlara maddi dəstək verir. Başqa sözlə, özünüməşğulluğa diqqətin artırılması bu insanlara öz fəaliyyətlərini genişləndirmək üçün münasib şərait yaradır.

Bu il iyulun 1-də Prezident İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədə də bu barədə ətraflı söhbət gedib. Dövlət başçısı bildirib ki, özünüməşğulluğa tələbat da artır, proqramla əhatə olunan insanların sayı da.

Ötən il bu proqramla 6 min ailə əhatə olunmuşdu. Onlar mikro və kiçik biznesə başlamaq üçün aktivlərlə təmin edilmişdilər. Prezidentin göstərişinə əsasən bu il üçün İşsizlikdən Sığorta Fondunun büdcəsinə müvafiq dəyişikliklər edildi. Əlavə vəsaitin cəlb olunması nəticəsində cari ildə 10 min ailənin özünüməşğulluq proqramı ilə əhatə edilməsi planlaşdırılır.

Hadisələrin gedişi göstərir ki, əhalinin bu proqrama böyük marağı və rəğbəti var. Səbəb isə onların bu mexanizmdən ciddi şəkildə bəhrələnməsidir.

Bu ilin birinci yarısında 45 minə qədər müraciət daxil olub. Bunlar nəzərə alınaraq ötən ildən növbədə qalan insanlara və bu il müraciət edənlərin arasında əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə və həssas kateqoriyanı təmsil edən digər insanlara üstünlük verilir. Bu il artıq 4 min nəfər təlimlərdən keçib, 1100 nəfər aktivlər əldə edib.

Layihəyə BMT-nin İnkişaf Proqramı da cəlb olunub. 1000-ə yaxın ailə bu proqramdan dəstək alacaq. Sözügedən iclasda Prezident İlham Əliyev demişdir: "Biz bu məsələləri beynəlxalq maliyyə qurumları ilə də müzakirə etmişik. Dünya Bankı ilə bu ilin əvvəlində müzakirələr aparılıb və biz onları bu proqrama dəvət etdik. Dünya Bankının bu proqramda iştirakı təbii ki, bizə əlavə maliyyə resursları verəcək".

Özünüməşğulluq perspektivli proqramdır. Bu proqram insanların özlərinin dolanışığını yaxşılaşdırmağa, bəzi vətəndaşları ələbaxımlıq vərdişindən çəkindirməyə kömək edəcək. Eyni zamanda iqtisadi inkişafa təkan verəcək, xüsusilə regionlarda məşğulluq probleminin həllini sürətləndirəcək. Məşğulluğun uğurlu həlli isə ölkə iqtisadiyyatının inkişafının mühüm amillərindən, sosial həyatın göstəricilərindən biridir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Etibarlı tərəfdaş, səmimi müttəfiq

## Prezident İlham Əliyevin uğurlu diplomatiyası Azərbaycanın beynəlxalq mövqelərini davamlı olaraq gücləndirir

*Əvvəli 1-ci səh.*

Bu müddətdə Azərbaycan enerji siyasətində qarşıya qoyduğu bütün hədəflərə çatdı, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin çəkilişinə nail oldu.

Bütün bunların hər biri respublikamızı həm bir dövlət kimi tanıtdı, həm müstəqilliyimizin, dövlətçiliyimizin əsaslarını daha da bərkitdi, həm də dünyadakı mövqelərini möhkəmləndirdi. Digər tərəfdən, bu cür möhtəşəm layihələrin həyata keçirilməsi müstəqil siyasət tələb edir. Etiraf olunmalıdır ki, Azərbaycan müstəqilliyinin ilkin vaxtlarında enerji layihələrini həyata keçirməyə başlayanda ölkəmizə beynəlxalq səviyyədə nə qədər təzyiqlər var idi. Xəzərin karbohidrogen ehtiyatları ilk dəfə məhz Azərbaycanın sayəsində alternativ marşrutla dünya bazarlarına çıxmalı idi. Bunu isə qəbul etməyənlər çox idi. Amma Heydər Əliyevin əsasını qoyduğu, İlham Əliyevin layiqincə davam etdirdiyi çevik və qətiyyətli siyasət ölkəmizə qarşı çıxan bütün qüvvələrin niyyətlərini puç, planlarını darmadağın etdi.

Sonrakı dövrdə Azərbaycan kosmik dövlətə çevrildi, Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi" istifadəyə verildi. Ən mühüm nailiyyətlərdən biri də 2050-ci ilədək dövr üçün yeni neft müqaviləsinin imzalanması oldu. Bu layihələrin həyata keçirilməsində artıq respublikamıza qarşı hansısa təzyiqdən söhbət gedə bilməzdi. Çünki bütün antiazərbaycançı dairələr anlayırdılar ki, güclü və nüfuzlu Azərbaycana qarşı çıxmaq qeyri-mümkündür.

### Yüksək imic və söz sahibi

Respublikamızın nüfuz və söz sahibi olmasını təsdiqləyən bir çox amilləri sadalamaq mümkündür ki, bunlardan ən başlıcası Azərbaycanın yeritdiyi müstəqil siyasətdir. Bununla bağlı kifayət qədər və beynəlxalq səviyyədə öz dəstəyini tapmış faktlar ortaya qoymaq mümkündür. Azərbaycanın həyata keçirdiyi enerji diplomatiyası, sürətli sosial-iqtisadi inkişafı, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ortaya qoyduğu prinsipial mövqeyi, öz ərazilərinin məhz dialoq və əməkdaşlıq üçün açıq olduğunu birmənalı şəkildə elan etməsi bu barədə kifayət qədər aydın fikir söyləməyə əsas verir.

Beynəlxalq miqyasda qazandığımız yüksək etimadın kökündə həm də ölkəmizin etibarlı siyasi və iqtisadi tərəfdaş olması, dünyanı narahat edən hər bir məsələdə qətiyyətli və prinsipial mövqe tutması, sülhə və əmin-amanlığa layiqli töhfələr verməsi dayanır. Azərbaycan Ordusunun bölmələri ayrı-ayrı ölkələrdə sülhün və əmin-amanlığın təmin olunmasında iştirak edir, beynəlxalq terrorçuluqla mübarizədə öz sözlərini deyirlər. Ölkəmiz beynəlxalq miqyaslı bütün məsələlərdə üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirməklə etibarlı tərəfdaş olduğunu hər zaman nümayiş etdirir. Bunun da məntiqi nəticəsi olaraq Azərbaycanın beynəlxalq nüfuzu sürətlə yüksəlir.

Bunlarla yanaşı, Azərbaycanın sivilizasiyalar və mədəniyyətlər arasında sülhü möhkəmləndirən, humanitar əməkdaşlığa çağıran dialoq təşəbbüsləri bütün dünyada maraq doğurur. Həyata keçirdiyimiz qlobal iqtisadi layihələrlə bərabər, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə formalaşan yeni əməkdaşlıq formatları regionda iqtisadi və sosial rifahın, təhlükəsizlik və qarşılıqlı səmərəli əməkdaşlıq mühitinin yaranması və inkişafına mühüm təsir göstərir. Digər tərəfdən, Azərbaycan müstəqil siyasət yeridərək qlobal güclərin yürütdüyü təzyiq və təcrid siyasətinə qoşulmur, beynəlxalq münasibətlərdə hərbi ritorikanın artdığı bir vaxtda İran və Rusiya kimi qonşu dövlətlərlə qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq əlaqələrini, dostluq və mehriban qonşuluq siyasətini daha da gücləndirir.

Azərbaycanın, Ermənistanı çıxmaq şərtilə, bütün region dövlətləri ilə münasibətləri olduqca yüksək səviyyədədir. Onların əksər qismi ilə respublikamızı tək mehriban qonşuluq və dostluq münasibətləri deyil, həm də strateji əlaqələr birləşdirir. Xüsusilə qeyd edilməlidir ki, dövlət başçıları arasında mövcud olan şəxsi dostluq münasibətləri ölkələr arasında bütün istiqamətlər üzrə əlaqələrin inkişafına olduqca mühüm təsir göstərir.

Təbii ki, bütün bunlar Azərbaycanın yeganə problemi olan ərazi bütövlüyünün təmin olunmasında olduqca mühüm əhəmiyyət kəsb edir. Diqqətçəkən xüsusi məqam isə odur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət fonunda Ermənistanın yeni rəhbərliyinin reallıqdan uzaq və qeyri-sağlam mövqeyi sülh danışıqları prosesində bəzi məqamları üzə çıxarır. Görünən odur ki, işğalçı ölkə getdikcə beynəlxalq dəstəyini sürətlə itirir. Bu isə Dağlıq Qarabağ probleminin ədalətli həllini yaxınlaşdırır.

Bütövlükdə Prezident İlham Əliyevin uğurlu diplomatik gedişləri Azərbaycanın beynəlxalq mövqelərini davamlı olaraq gücləndirir. Bu siyasətin nəticəsi olaraq dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində Xalq rəssamı Fərhad Xəlilovun fərdi sərgisi açılıb



Heydər Əliyev Mərkəzində Xalq rəssamı Fərhad Xəlilovun "Yenidən Bakıda" adlı fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, açılış mərasimindən əvvəl Xalq rəssamı Fərhad Xəlilov çıxış edərək sərgisinin belə bir möhtəşəm mərkəzdə nümayişinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib. Vurğulayıb ki, bu sərgi onun Bakıda ikinci fərdi sərgisidir. İlk sərgisi on il bundan əvvəl təşkil edilib: "Rusiyada 11 fərdi sərgim açılıb. Bu möhtəşəm mərkəzdə sərgi təşkil etmək böyük məsuliyyət tələb edir. Çünki bura dünyada olan ən böyük, müasir mədəniyyət mərkəzlərindən biridir. Buna görə çox şadam. Sərgidə uşaqlıq, gənclik və müasir dövrdə çəkdiyim əsərlər təqdim edilib. Burada Xocalı faciəsinə həsr etdiyim əsərim də nümayiş olunur. Uzun müddətdir bu mövzu üzərində çalışırdım. Burada istəmişəm ki, ermənilərin vəhşiliklərini dünyaya çatdırım. İnanıram ki, sərgi ziyarətçilər tərəfindən böyük maraqla qarşılanacaq".

Müasir incəsənət üzrə mütəxəssis, Müasir İncəsənət Dövlət Mərkəzinin bədii rəhbəri, Rusiyanın Ali İqtisad Məktəbinin professoru Leonid Aleksandroviç Bajanov bildirib ki, bu sərgi daha çox gənclərin marağına səbəb olmalıdır: "Çünki son 50 ilin sənətkarları gənc rəssamların diqqətindən kənarda qalıb. Beləliklə, onların əsərlərinin nümayiş etdirilməməsi ilə biz bir çox bədii yaradıcılıq nümunələrini itirmiş oluruq. Şadam ki, bu sərgi geniş şəkildə təqdim olunur. Rəssamın yaradıcılığı irəlidə çox tamaşaçını gözləyir. O, dünya miqyaslı rəssamdır. Bizim tələbələr onun yaradıcılığına böyük maraq göstərirlər və əsərlərini öyrənirlər".

Rəssam haqqında ancaq onun əsərlərinin danışdığını söyləyən SSRİ Xalq artisti, rejissor, Tbilisidəki Şota Rustaveli adına Dövlət Akademik Teatrının bədii rəhbəri Robert Robertoviç Sturua Xalq rəssamının sərgilərinin dünyanın bir çox ölkələrində uğurla nümayiş olunduğunu diqqətə çatdırıb.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Qeyd edək ki, sərgidə rəssamın 60-a yaxın rəsm əsəri nümayiş olunur. Abşeron təbiətinin vurğunu olan rəssamın tablolarında Buzovna, Mərdəkan, Qala mənzərələri xüsusi incəlik və sevgi ilə əks edilib.

Sərgidə Fərhad Xəlilovun "Görüş", "Xatirə", "Torpağın naxışları", "Gözlənilməz baxış" silsiləsindən təqdim edilən rəsmlərində torpağın, dənizin və səmanın vəhdəti hiss olunur.

Sərgi oktyabrın 25-dək davam edəcək.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Bakının nəqliyyat sistemi gündən-günə yenilənir

*Əvvəli 1-ci səh.*

Paytaxtın avtobus parkının yenilənməsi məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən 300 yeni avtobus sifariş olunub. Avtobuslardan 168-i artıq Bakı Nəqliyyat Agentliyinə təhvil verilib. Oktyabrın sonunda avtobusların sayı 200-ə çatdırılacaq. Ümumilikdə bütün avtobusların ilin sonunadək təhvil verilməsi planlaşdırılır.

İctimai nəqliyyatdakı müsbət dəyişikliklərə nəzər yetirsək, hər ötən il infrastrukturun yeniləndiyini, sərnişinlərin ixtiyarına daha rahat, iritutumlu avtobusların verildiyini görərik. Həyata keçirilən uğurlu islahatların sayəsində həmçinin sərnişindaşıma fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər istehsalat bazalarını, avtobus parklarını yeniləyir, daha keyfiyyətli və rahat sərnişindaşıma xidməti göstərirlər.

Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkədə, xüsusən də paytaxtda nəqliyyat parkının müasirləşdirilməsi, sərnişinlərin müntəzəm marşrut avtobuslarından təhlükəsiz və rahat istifadəsini təşkil etmək məqsədilə bir sıra layihələr icra olunub. Bu layihələrdən biri də ictimai nəqliyyat sistemində yenilik olan nəqliyyat mübadilə mərkəzlərinin - HUB-ların yaradılmasıdır. Bu layihədə əsas məqsəd sərnişinlərin rahat gediş-gəlişinin təmin edilməsi, şəhərdə nəqliyyatın mobilliyinə nail olunması, Bakının mərkəzi hissəsində nəqliyyat sıxlığının aradan qaldırılmasıdır. Bu layihənin icrası vətəndaşların rahatlığını təmin etməklə yanaşı, sərnişindaşımada təhlükəsizlik baxımından da mühüm rola malikdir. Sentyabrın 25-də fəaliyyətə başlayan Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi də bu layihənin uğurlarından biridir.

## Prezident İlham Əliyev paytaxtın hər yerində ən yüksək səviyyəli nəqliyyat şəraitinin yaradılması ilə bağlı tapşırıqlar verdi



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı olan mərkəzdə sərnişinlər üçün yüksək şərait yaradılıb. Qeyd edək ki, bu mərkəz ilk HUB kimi hələ 2016-cı ildə yaradılıb. Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişmə nöqtəsi, Böyükşor qovşağı, eləcə də metronun "Koroğlu" stansiyasının yaxınlığındakı mərkəz pilot layihə olaraq əvvəlcə yüngül konstruksiyalardan hazırlanmışdı. Lakin sonradan əhalidən gələn müraciətlərlə əlaqədar mərkəz bu il əsaslı şəkildə yenidən qurulub və burada müasir nəqliyyat infrastrukturu yaradılıb. Bakı şəhərinin əsas giriş-çıxış ərazilərində 5 böyük HUB təşkil edilib, şəhər və qəsəbələrdə isə 6 kiçik HUB-ın yaradılması planlaşdırılır.

Prezident İlham Əliyev layihəni dəyərləndirərkən vurğulayıb ki, dövlət məhz bu sahəyə böyük diqqət göstərir. Çünki vətəndaşların rahatlığı hər şeydən üstündür. Ona görə ən müasir avtobuslar alınır, nəqliyyatla və təhlükəsizliklə bağlı çox ciddi tədbirlər görülür: "Biz bu parkı mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl yaratmışıq. İndi bura gözəl bir istirahət zonasıdır. Bu da parka bitişik olan bir yerdir. Burada gözəl şərait var. Biz böyük bir ərazini ictimai yerə çevirdik. Çünki bəzi fikirlər var idi ki, burada tikinti aparılsın, binalar tikilsin. Mən icazə vermədim, dedim ki, bura vətəndaşların rahatlığı üçün ictimai zona olmalıdır. İndi bura böyük ərazidir. Şəhərin mərkəzində yeni gözəl istirahət və nəqliyyat mərkəzi yaradılıb...Bu işləri davam etdirin. Şəhərimizin hər bir yerində ən yüksək səviyyəli nəqliyyat şəraiti yaradılmalıdır".

"Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi istər yol hərəkətinin təşkilinə, istərsə də sərnişindaşıma sahəsinə müsbət töhfə verəcək. Bu mərkəz şəhərdaxili və şəhərlərarası avtobuslar, metro və dəmir yolu nəqliyyatı kimi ictimai nəqliyyat növlərini birləşdirən və onların arasında daşımaları asanlaşdıran nəqliyyat infrastrukturudur. HUB konsepsiyası əsasən şəhərətrafı ərazilərdən şəhər mərkəzinə gələn avtobusların hərəkətinin mərkəzləşdirilmiş şəkildə təşkilində, həmçinin sərnişindaşımada səmərəli idarəetmənin və nəzarət mexanizminin gücləndirilməsində mühüm rol oynayır.

Burada dörd platformadan ibarət avtobus terminalı inşa edilib. Platformalarda müasir informasiya texnologiyaları avadanlığı, havalandırma sistemi ilə təchiz edilmiş 10 gözləmə zalı var. Gözləmə zalları Azərbaycanın elm, ədəbiyyat, mədəniyyət, incəsənət, tarix, idman sahələrində əldə etdiyi uğurları, zəngin dəyərləri əks etdirən yazılı və qrafik məlumatlar əsasında tərtib edilib. Hər bir zalda maarifləndirici məlumatlarla yanaşı, kitab rəfləri də quraşdırılıb. Gözləmə zalları ilə yanaşı, mərkəzdə 5 köşk, 1 idarəetmə otağı, tibb məntəqəsi, ana və uşaq otağı inşa edilib. Zallar içməli su ilə də təmin olunub. Ətraf kənd və qəsəbələri şəhər mərkəzi ilə birləşdirən 30 müntəzəm marşrut xətti üzrə 430-a yaxın avtobusun fəaliyyət göstərdiyi mərkəzin xidmətlərindən gün ərzində 270 min nəfərə yaxın sərnişin istifadə edəcək. Ümumilikdə isə gün ərzində Bakı şəhərində 2,2 milyon sərnişin daşınır. Burada hər bir marşrut xətti üzrə avtobuslar üçün dayanacaq yeri müəyyən edilib, məlumatlandırıcı lövhələr yerləşdirilib.

Göründüyü kimi, dövlət başçısının bu istiqamətdəki tapşırıqları uğurla icra olunur və paytaxtda nəqliyyat sisteminin, infrastrukturun inkişafı, sərnişindaşıma xidmətinin gündən-günə yüksəlməsi vətəndaşların rahatlığına xidmət edir. Tezliklə şəhər və qəsəbələrdə yaradılacaq 6 kiçik HUB da bu uğurlar sırasına yazılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Cəfər Cabbarlı-120






● Realist sənətkar

# Sükuta dalmış həqiqətlər

**Çox qısa - cəmi 35 illik ömrünü üç siyasi şəraitdə - çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti dövründə və sovet reallığında yaşayan, yaşından xeyli irəli getmiş yaradıcılıq dühası ilə hər zaman hamını heyrətləndirməyi bacaran Cəfər Cabbarlının böyüklüyü ondadır ki, qələmə aldığı əsərlərlə həmin illərin hər birinin tarixi mənzərəsini yarada bilmişdir.**
**Klassik ədəbi irs zəminində yetişən yazıçı milli ədəbiyyatın parlaq ənənələrini qorumaqla bərabər, yenilik və müasirlik uğrunda mübarizəni yaradıcılığının əsas qayəsi kimi təqdim edir. Bununla yanaşı, Cəfər Cabbarlı şəxsiyyət azadlığının və humanizmin, istiqlal ideallarının da tərənnümçüsüdür.**



Əfsus ki, sovet dövründə tədqiqatçılar zəmanənin ağır şərtlərindən irəli gələrək bu mənəvi xəzinədən əsasən sosializm realizminə gərək olanları götürüblər. Ədibin milli ruh, istiqlal duyğuları ilə zəngin bir çox tamaşa və pyeslərini, poetikasını isə ən yaxşı halda ad çəkmədən məfkurəvi cəhətdən ziyanlı, bədii cəhətdən zəif əsərlər kimi səciyyələndiriblər. Cəfər Cabbarlının 1917-ci ildə Osmanlı tarixi ilə bağlı qələmə aldığı "Trablis müharibəsi" və ya "Ulduz", "Ədirnə fəthi" kimi pyesləri on illər boyu gün işığına çıxarılmayıb. Onlar türk məişətini, qəhrəmanlığını və şücaətini təbliğ etdiyi üçün hələ yazıldığı gündən vulqar və sovet tənqidi tərəfindən "pantürkist", "panislamist" təmayüllü əsərlər kimi qarşılanıb. Az sonra tamamilə səhnədən çıxarılıb. Bu əsərlər ötən əsrin 80-ci illərinin sonlarına qədər arxiv qəfəslərində "məhbəs həyatı" yaşamalı olub.

## İtkin əsər

Cəfər Cabbarlının "Bakı müharibəsi" əsəri isə daha ağır tale ilə üzləşib. Bu əsərdə 1918-ci ilin martında Bakıda baş verən qanlı hadisələr, erməni daşnaklarının azərbaycanlılara qarşı zülmləri təsvir edilir, başda Nuru Paşa olmaqla xilaskar türk ordusunun şəhəri erməni vəhşilərindən xilas etməsi haqqında söhbət açılırdı. Həmin facię 1919-cu il sentyabrın 16-da Abbas Mirzə Şərifzadənin rəhbərliyi ilə "Türk ocağı"nda (Türk Dövlət Teatrı) tamaşaya da qoyulmuşdu. Amma əsər sonradan ilim-ilim itirilmişdir.

İndi maraqlı bir məqama diqqət edək: ədibin 1905-ci ildə çar Rusiyasının siyasi dairələrinin təhriki ilə Bakının erməni və azərbaycanlı əhalisi arasında yaradılmış qanlı qarşıdurmadan bəhs edən "1905-ci ildə" pyesi sovet dövründə xalqlar dostluğunun təcəssümü kimi geniş təbliğ edilir, dərsliklərə salınır, tamaşaya qoyulurdu. Erməni daşnaklarının 1918-ci ilin martında bolşeviklərlə birləşərək azərbaycanlılara qarşı törətdikləri kütləvi soyqırımına həsr olunmuş "Bakı müharibəsi" əsəri isə necə it-bata salınırsa, ondan bu günə qədər bir xəbərətər yoxdur. Halbuki indi həmin əsər o qanlı tariximizə, mart soyqırımının mənzərəsinə obyektiv baxış üçün son dərəcə gərəkli bir mənbə olardı.

## Cümhuriyyətin süqutundan sonra

Sovet dövründə və elə ondan sonrakı illərdə də tədqiqatçıların nəzər-diqqətindən kənarda qalan təkcə Cəfər Cabbarlının bəzi əsərləri olmayıb. Bu böyük ziyalımızın milli istiqlal hərəkatımızdakı rolu, Azərbaycan Xalq Cümhuriyyətindəki fəaliyyəti də lazımi qədər işıqlandırılmayıb. Onun Cümhuriyyət dövründəki fəaliyyəti, daha sonra 1923-cü ilə qədər sovet rejiminə qarşı qeyri-leqal mübarizə aparan milli istiqlal hərəkatına qoşulması, "İstiqlal" qəzetinin nəşrində gizli iştirakı, hətta iki dəfə həbs həyatı yaşaması barədə geniş təfərrüatları ilk dəfə professor Asif Rüstəmlinin "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" adlı kitabında (Bakı, 1918) oxuyuruq. Zəngin arxiv materialları əsasında qələmə alınmış əsər dövrün bir çox həqiqətlərinə işıq salır.

Adətən Azərbaycan Xalq Cümhuriyyətindən sonrakı illər haqqında danışanda və yazanda çox qısa şəkildə "Cümhuriyyətin süqutundan sonra" ifadəsindən istifadə edirik. Sövq-təbii olaraq bizə elə gəlir ki, Azərbaycanın bolşeviklər tərəfindən işğalından, cümhuriyyət xadimlərimizin bir qisminin xaincəsinə qətlindən, bir qisminin həbsindən, bir qismininsə mühacirət etməsindən sonra milli istiqlal ideyalarının da ömrü başa çatıb. Amma xalqın milli enerjisinin, dövlətçilik əzminin, XIX əsrin ikinci yarısından geniş vüsət almış maarifçilik hərəkatının bəhrəsi olan cümhuriyyət, istiqlal ideyaları belə asanlıqla "təslim ola" bilməzdi. Azərbaycan xalqının bu ideyaları bolşevik işğalı dövründə də davam etdirən qəhrəman övladları vardı və Cəfər Cabbarlı onlardan biri idi.

## Gizli partiya

Tədqiqatçıların qeyd etdikləri kimi, ədibin siyasi dünyagörüşünün formalaşmasında yaxın dostu və həmkarı Mirzə Bala Məmmədzadənin böyük rolu olmuşdu. Cəfər Cabbarlı dostunun təsiri ilə həm "Yaşıl qələm" Cəmiyyətinə, həm də Müsavat Firqəsinə üzv yazılmışdı. O, firqənin işində fəal iştirak edirdi. Qurultaylardakı çıxışları ilə Azərbaycan kəndlisinin acınacaqlı durumundan bəhs edir, torpaq islahatlarının aparılmasının zəruriliyini bildirirdi. Səsləndirdikləri kəskin tənqidi fikirlərə görə onu və dostlarını radikal sol müsavatçılar da adlandırırdılar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə Cəfər Cabbarlı parlamentdə stenoqrafçı-katib işləyir, parlamentin rəsmi orqanı olan "Azərbaycan" qəzetində tərcüməçilik fəaliyyəti ilə məşğul olur və milli istiqlal ruhlu şeirlər, dram əsərləri yazırdı. Azərbaycan Məclisi Məbusanının sonuncu fövqəladə iclasının keçirildiyi və qırmızı ordunun təhdidləri ilə hakimiyyətin bolşeviklərə verildiyi 27 aprel gecəsi bir qrup gənc vətənpərvər ana yurdunun gələcək taleyinin, istiqbalının müzakirəsi üçün bir yerə toplaşır. Azərbaycan Cümhuriyyəti Nazirlər Kabinetinin İşlər İdarəsində tərcüməçi vəzifəsində işləyən Əbdül Vahab Yurdsevər o məşum gecəni sonralar belə xatırlayırdı: "Həmən 27 nisan axşamı Mirzə Bala ilə birlikdə kendisini evində ziyarət edərək tasvibini almış və arkadaşlardan Məhəmməd Sadıq Quluzadə (Xülusi) və Məhəmməd Həsən Baharlını mərhum şair Cəfər Cabbarlının şəhər kənarındakı iqamətgahında toplayaraq yəmin mərasimiylə ilk gizli Partiya Mərkəzi-Ümumisini qurmuşduq".

## Həqiqət sirr saxlamır

Cəfər Cabbarlı bu partiyada Mərkəzi Komitəyə rəhbərlik edirdi. Qısa müddətdə təşkilat Bakının dörd rayonunda, Lənkəranda, Salyanda, Gəncədə, Gürcüstanda və Aşqabadda formalaşmağı bacarmışdı. Onlar Şərq xalqlarının azadlıq mübarizəsində, Azərbaycanın müstəqilliyinin təmin olunmasında və milli inkişafında yeni hökumətlə də əməkdaşlığa hazır idilər. Hətta xalq komissarı Həmid Sultanov vasitəsilə Azərbaycan İnqilab Komitəsinə bu barədə bəyannamə də təqdim etmişdilər. Amma yeni hökumət bu bəyannaməyə təqiblərlə, bolşevik irticasının sərt üzü ilə cavab verdi. 1922-ci ilin payızından artıq onların həbsinə hazırlıq gedirdi. Məsələ Zaqafqaziya Fövqəladə Komissiyasının (ÇK) sədr əvəzi V.Pankratovun birbaşa nəzarətində idi. ÇK agentləri partiyanın digər fəal təmsilçiləri kimi, Cəfər Cabbarlının da fəaliyyətini diqqətlə öyrənir, onun şəxsi əlaqələrini üzə çıxarmağa çalışırdılar. Azərbaycan Fövqəladə Komissiyasının Agentura şöbəsinin 5 may 1923-cü il tarixli məxfi məlumatında isə onun yaşayış yerinin - Bakı şəhəri, Böyük Salyan küçəsi, ev 4 ünvanının həbs üçün dəqiqləşdirildiyini görürük.

Onda ədib Azərbaycan Mərkəzi İcraiyyə Komitəsində stenoqrafçı-katib, "Kommunist" qəzetində mütərcim vəzifələrində çalışır, eyni zamanda yenicə yaradılmış Bakı Dövlət Universitetinin tibb fakültəsinin ikinci kursunda təhsil alırdı.

1923-cü ilin 14 iyun axşamı, işdən sonra onu evində həbs etdilər və mənzilində axtarış apardılar. Əməliyyata Danilyan soyadlı erməni rəhbərlik edirdi. Axtarış və həbs orderini isə Azərbaycan ÇK-nın sədri Mir Cəfər Bağırov imzalamışdı. Axtarış zamanı hökumət əleyhinə nəsə aşkar edilməsə də, ədibin bütün sənədləri, bədii əsərlərinin əlyazmaları yoxlanılmaq üçün müsadirə edilmişdi. Həmin gecə Cəfər Cabbarlı ilə birgə 15 nəfər tanınmış ziyalı, ictimai-siyasi xadim, jurnalist də həbs olunmuşdu. Onların sırasında Əbdül Vahab Məmmədzadə, Məmməd Sadıq Quluzadə, Seyid Hüseyn Sadıq, Rəhim bəy Vəkilov, Kərbəlayi Vəli Mikayılzadə, Həmid Qarayev, Novruz Ağazadə, Nəriman bəy Nərimanbəyli, Əli Əfsər Nəcəfzadə, Məhəmməd Səid Axundzadə, Əli Əkbər Süleymanzadə kimi mübariz istiqlal mücahidləri, gənc vətənpərvər və millətsevər ziyalılar var idi.


АССР
ОРДЕР № 202
C.Cabbarlının həbs orderi. Az.ÇK.14.06.1923


АНКЕТА
C.Cabbarlının ikinci həbs anketi. Az.ÇK.05.10.1923


Копия ордера №
C.Cabbarlının ikinci həbsdən azad edilməsi orderi. Az.ÇK.28.10.1923

## 454 nömrəli cinayət işi

Həbsindən iki gün sonra iyunun 16-da müstəntiqlər onu ilk dəfə dindirdilər. Azərbaycan ÇK-nın Qeydiyyat-Statistika hissəsi tərəfindən adına 454 nömrəli cinayət işi açıldı. İstintaqın ilk günü müstəntiqlər bütün fiziki təzyiq və işgəncə metodlarından istifadə etsə də, Cəfər Cabbarlıdan ciddi bir söz qopara bilməmişdilər. Həbsinin ilk günlərində həyat yoldaşı Sona xanım ona zəruri ərzaqlarla birgə həyətdən dərdiyi bir dəstə çiçək də göndərmişdi. Günəş işığına həsrət darısqal kamerada sıxıntıya davam gətirməyən zərif çiçəklər bir anın içində saralıb solmuşdu. Həbsxanada yazdığı "Açan-solan çiçəklər" adlı ilk şeiri bu mənzərənin - Cəfər Cabbarlının həmin çiçəklərlə eyniləşmiş taleyinin təsviri idi.

*Bən bir güldüm, açılmadan*
*budağımdan dərdilər,*
*Yaşıl ikən yarpaqlarım*
*əldən-ələ verdilər,*
*Çox çəkmədən yazıq*
*soldum, torpaqlara sərdilər,*
*İştə budur təbiətin sarsılma-*
*yan dövranı...*

Tədqiqatçılar bədii məziyyətlərinə görə bu şeiri sovet dövrü həbsxana poeziyasının ilk dəyərli nümunələrindən sayır. Cəfər Cabbarlının məhbəsdə yazdığı ikinci şeiri də kameraya mütəmadi tər çiçəklər göndərən Sona xanıma həsr edilmişdi. Bu şeirlər ədibin əsərlərinə daxil edilməsə də, onların yazılma tarixi Sona xanımın "Onu kim unudar" xatirələr kitabında özünə yer almışdı. Sovet senzurası bilərəkdən həmin şeirlərin Cəfər Cabbarlı xəstəxanada yatarkən qələmə alındığını göstərmişdi. Bununla da senzura ədibin sovet dövründə həbsini ciddi-cəhdlə gizlətməyə çalışmış, qırmızı rejimin belə gənc ziyalılara qarşı törətdiyi cinayətləri ört-basdır edə biləcəyini düşünmüşdü. Amma həqiqət sirr saxlamır. Cəfər Cabbarlının xəstəxanadan deyil, həbsxanadan Sona xanıma rus dilində yazdığı və indi də ədibin ev-muzeyində qorunan onlarla qısa məktubu sovet rejiminin ziyalıya düşmən münasibətini ifşa edən tarixi sənədlərdir.

## "Müsavatçıların bəyannaməsi"

Ədibin ÇK-nın katibi və kollegiya üzvü Ə.Axundova 28 iyul tarixli bir məktubundan belə anlaşılır ki, onun məhbəs günləri Bayıl həbsxanasında yox, XI Ordunun Xüsusi şöbəsinin zirzəmisində keçib. Cəfər Cabbarlını ÇK-nın Valik və Vladimir adlı iki müstəntiqi sorğu-sual ediblər. Onu gizli Müsavat partiyasında təbliğat-təşviqat sahəsinə rəhbərlik etməkdə, Gürcüstan menşevikləri ilə danışıqlar aparmaqda günahlandırıblar. Müstəntiqlərin çoxsaylı suallarına cavab olaraq Cabbarlı partiyaya cəlb olunması və oradakı fəaliyyəti haqqında yığcam şəkildə demişdi: "Duma iclasından sonra "Müsavat" təşkilatında mən üç-dörd ay inersiya ilə işlədim. Bu müddətdən sonra ora gedişimin sayını seyrəltdim və sonra tamam kəsdim. Bir neçə dəfə Mirzə Bala mənə irad tutdu ki, mən işdən əlaqəmi kəsirəm, hətta mənə siyasi hissədə çalışmağı təklif etdi, amma mən imtina etdim. Doğrudur, birbaşa imtinam olmadı, lakin mən ora gedişimi dayandırdım".

Mirzə Bala deyirdi ki, Cəfər Cabbarzadə partiyanın təbliğat-təşviqat işinə cəlb edildikdən sonra cəmi iki ay işlədi. Bundan sonra o, işdən yayınmağa və tamamilə kənarlaşmağa başladı. O, özünü, əməyini və təhsilini teatr işinə həsr edirdi. Səhnəyə qoyulmaq üçün əsərlər yazır və tamamilə bu işlə məşğul olurdu.

İstintaq prosesində Əbdül Vahab ilə Cəfər üz-üzə gətirilməmişdir. Bu gənclər ifadələrində bir-birilərinə qarşı hörmət və ehtiramı gözləyirdilər. Lakin sərt təzyiqlərə və zorakılıq üsullarına tab gətirməyən Rəhim bəy Vəkilov yoldaşlarına və o cümlədən Cəfər Cabbarlıya qarşı günahlandırıcı ifadələr işlətməkdən özünü saxlaya bilməmişdir.

İstintaqın aparıldığı bütün mənbələrdə Mirzə Bala Məmmədzadənin ciddi axtarıldığı xüsusi vurğulanırdı. Lakin o, mühacirət etdiyi üçün həbsi mümkün olmadığından bolşeviklər bu partiya ilə bağlı gələcək fəaliyyətləri izləməkdən ötrü gözlənilməz taktika seçdilər. Həbs olunan müsavatçıların, o cümlədən Cəfər Cabbarlının imzası ilə "Kommunist" qəzetinin 14 avqust 1923-cü il nömrəsində "Müsavatçıların bəyannaməsi" adlı material dərc edildi. Bəyannamədə Şura hökumətinin inkişaf platformasına dəstək verilir, müsavatın məxfi təşkilatının buraxıldığı bəyan edilirdi. Bəyannamənin qəzetdə dərcindən bir gün əvvəl isə onları azadlığa buraxdılar. Onların azadlığa çıxmasında Azərbaycan ÇK-nın katibi və kollegiya üzvü vəzifəsində çalışan, sonralar isə "Azərnəşr"in direktoru işləmiş Əsəd Axundov kimi vicdanlı məmurların da böyük rolu olmuşdu. Əfsuslar ki, Ə.Axundov özü də sonralar Mir Cəfər Bağırovun qəzəbinə gəldi və 1937-ci ildə həbs edilərək 2 il sonra güllələndi.

## "İstiqlal" mətbəəsi

Cəfər Cabbarlının və əqidə yoldaşlarının azadlığı uzun sürmədi. 1923-cü il oktyabrın 5-dən 6-na keçən kecə istiqlal fədailərinin böyük və fəal bir qrupu - 20 nəfər yenidən həbs edildi. Cəfər Cabbarlı da onların arasında idi. Bu dəfə gəncləri sol müsavatçıların gizli nəşri olan və 19 sayı işıq üzü görmüş "İstiqlal" qəzetinin mətbəəsinə görə həbs etmişdilər. Gizli mətbəə qonşulardan birinin milisə satqınlığı nəticəsində aşkar olunmuşdu. "İstiqlal" qəzeti üçün məqalələrin yazılmasında və materialların çapa hazırlanmasında Cəfər Cabbarlı fəal iştirak etmişdi. Amma istintaqçılar onunla söhbətdə ən çox Mirzə Bala Məmmədzadənin yerini öyrənmək istəyirdilər. Cəfər Cabbarlının onunla yaxın dost olduğunu bildiklərindən istədikləri məlumatları almaqdan ötrü ədibə sonsuz işgəncələr verir, onu soyuq payız günündə su dolu quyuya salırdılar. Amma bu sısqa vücuddakı dəmir iradəni qırmaq mümkün deyildi. Cəfər Cabbarlı iki həbs dövrünün heç birində dözülməz işgəncələrə rəğmən kiminsə əleyhinə ifadə verməmişdi. Mirzəbala Məmmədzadə yazırdı: "1923 Cəfərin həyatında mühüm bir yer tutur. İstila və vəhşət rejiminə qarşı gizli çalışan Cəfər bu il digər müsavatçı arkadaşları ilə yaxalanmış və çeka bodrumunda aylarca ən ağır işgəncələrə məruz tutulmuşdur".

"Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" kitabında göstərilirdi ki, arxiv sənədləri diqqətlə nəzərdən keçirildikcə həbsxana divarları arasında fiziki zorakılığa məruz qalan, qol-qabırğası sındırılan, lakin mənən sınmayan, mətanət və iradə nümayiş etdirən gənc ədibin ləyaqətinə və şəxsiyyətinə heyran qalmamaq mümkünsüzdür: "O, ən ağır və dözülməz şəraitdə dostlara və uğrunda mücadilə apardığı ideala xəyanəti təsəvvürünə gətirmək duyğusundan belə uzaq idi. Xüsusilə Mirzə Bala ilə bağlı suallar cavabsız qaldığı üçün Cabbarlıya qarşı intensiv "işgəncə kursu" oktyabrın 5-dən 13-dək davam etdirilmişdir".

Onun ikinci həbsindən bir neçə gün sonra qəribə hadisə baş verdi. Cəfər Cabbarlı məhbəsdə ona verilmiş qəzetdə evinin qarət olunması xəbərini oxudu. Dörd divar arasında olan insana çatan bu xəbər dramaturqda ironik gülüş yaratdı. Onun əsas sərvətini - çoxsaylı əsərlərinin əlyazmalarını ÇK-nın əməkdaşları qarət edib aparmışdılar. Ailəsi ilə sadə bir həyat sürən gənc dramaturqun evində oğrunun əlinə keçən nəsə yox idi.

Azərbaycan ədəbiyyatında "Ana" kimi möhtəşəm şeir yaratmış ədibin həbsxanadakı əsas qayğısı anası Hacı Şahbikə xanımın ağır xəstəlik səbəbindən cərrahiyyə əməliyyatı keçirməsi idi. Onun həbsxanadan yazdığı məktublarında anasına əməliyyatqabağı ürək-dirək verilir. Sona xanımdan tez-tez anasının sağlıq durumunu soruşurdu.

## Bir yanlışın naxışı

İkinci həbs müddəti oktyabrın 29-a qədər çəkdi. Onun həbsdən buraxılmasını sürətləndirən qəribə bir təsadüf repressiya illərində insan talelərinin səlahiyyət sahiblərinin əlində necə oyuncağa çevrildiyini göstərir. İstintaq orqanlarında necə qeyri-peşəkar adamların çalışdığını, istintaq proseslərinin qeyri-ciddi tərzdə aparıldığını təsdiqləyir. Cəfərin ad və soyadının ÇK sənədlərində səhvən "Djabar Zade Kafar" kimi yazılması onun həyatını xilas etmişdi. Belə ki, Gəncədən Mir Cəfər Bağırova məktub yazaraq üç ay əvvəl həbs olunub Bakıya gətirilmiş həyat yoldaşının istintaqının sürətləndirilməsini xahiş edən Dilbər Kafiyeva soyadlı bir şəxsin müsbət dərkənarlı ərizəsini istintaq orqanları "Djabar Zade Kafar"la səhv salırlar. Onun 791 saylı cinayət işi digər istiqlalçıların işindən ayrılır. İşə baxılması sürətləndirilir. Yekun qərarda Cəfər Cabbarlının ləğv edilmiş Müsavat partiyası ilə heç bir əlaqəsinin olmadığı göstərilir və o, oktyabrın 30-da azadlığa buraxılır.

*Kamera yoldaşı olmuş Əbdül Vahab deyirdi ki, Cəfərin üzərində həbsxanada iki növ təzyiq vardı. Birincisi, onu siyasi fəaliyyətdən kənarlaşdırmaq, ikincisi isə, milli istiqlal məfkurəsindən uzaqlaşdıraraq sovet ədibi etmək qayəsi. Həbsxanadan buraxılsa da, bu ikinci təzyiq son gününə qədər davam etdi və axırda bu böyük dühanın vaxtsız ölümü ilə nəticələndi.*

*Cəmi 35 yaşında qırılmış işıqlı ömrün ən böyük təsəllisi isə əsrlərə sığmayan mənəvi irsidir.*

***İradə ƏLİYEVA, "Azərbaycan"***

## Görkəmli ədəbiyyat xadimlərinin Cəfər Cabbarlı irsi haqqında fikirləri

"C.Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatı tarixində ən nadir simalardan biridir. O, öz yaradıcılıq xəzinəsinin zənginliyi etibarilə M.F.Axundovdan və C.Məmmədquluzadə - Molla Nəsrəddindən sonra XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli simasıdır. C.Cabbarlı Azərbaycan klassik dramaturgiyası və klassik şeiri zəminəsində yetişmiş, milli ədəbiyyatımızın ən gözəl ənənələrini inkişaf etdirir. O, yeni bir dramaturgiya ədəbi məktəbini yaratmış bir şəxsiyyətdir".

❖ ❖ ❖

"Cəfər Cabbarlının adı çəkiləndə sadəcə dillər deyil, canlı ürəklər danışır... Nə üçün? Çünki o, ürəkləri fəth edən bir sənətkardır... O, həyat və mübarizə nəğməkarı idi. O, yalnız qəhrəmanları - öz zəhməti, işi və hünəri ilə tarixi dəyişən, qabaqcıl və inqilabi əməllərlə yaşayıb yaradan qəhrəmanları sevərdi, onları tərənnüm edərdi. O, özü də böyük bir qəhrəman idi".

***Səməd VURĞUN***

❖ ❖ ❖

"Cabbarlının dili bugünkü Azərbaycan-türk ədəbi dilinin başlıca nümunələrindən biridir. Səhnə dilimizi Cabbarlı əbədiləşdirmiş və azərbaycanlaşdırmışdır".

***Əli NAZİM***

❖ ❖ ❖

"Cəfərin əsərləri yalnız istirahət etmək, "ruhi qida" vermək ilə kifayətlənməyərək, oxucu və tamaşaçısını öyrətmək, onu tamamilə dəyişmək iqtidarına malik idi. Cəfərdə tarixdə az-az insana məxsus olan bir sənət qüdrəti var idi. O, oxucusunu, tamaşaçısını yalnız bir an üçün deyil, həmişəlik öz təsiri altına alırdı".

***Məmməd Kazım ƏLƏKBƏRLİ***

❖ ❖ ❖

"1905-ci ildə" Cabbarlı yaradıcılığının demək olar ki, ən yüksək zirvəsidir. Bu əsərin yalnız Cabbarlı bədii yaradıcılığında deyil, həm də bütün Azərbaycan ədəbiyyatında böyük məharətlə yaradılmış ən ciddi pyes olduğunu iddia etmək mümkündür.

...Kim iddia edə bilər ki, bu vaxta qədər bizim ədəbiyyatımızda "1905-ci ildə" dramında olduğu kimi bəzən şeir dərəcəsinə yüksələn, tamaşaçısını sevməyə, ürəkdolusu çırpınmağa məcbur edə biləcək təzə bir lirika var idi?"

❖ ❖ ❖

"Cabbarlının yaradıcılığında bütün xalqın həyatı öz əksini tapır. O, xalqın keçmişini, bugününü, gələcəyini, məhz dövrünün fikir zirvəsində dayanaraq təsvir edən bir sənətkardır... Əgər Cabbarlının yaratdığı bədii lövhələrin mənasına və mahiyyətinə daha dərindən yanaşılarsa, onun həqiqi mənada milli bir dramaturq olduğu anlaşılır".

***Mehdi HÜSEYN***

❖ ❖ ❖

"30-cu illər Cabbarlı realizminin ən yüksək kamilliyə ucaldığı dövrdür... "Sevil"in, "Almaz"ın, "Yaşar"ın səhnə uğuru qeyri-adi idi. Cabbarlı real həyat faktına çevrilən bədii əsər yazırdı. Gerçəkliyi əks etdirən yox, dəyişən, yenidən yaradan sənət möcüzəsi göstərirdi. Səhnədəki hadisə həyatda təkrar və təqlid üçün modelə çevrilirdi... tamaşaçılar "Sevil"ə çadralı gəlib "Sevil"dən çadrasız qayıtdılar. Onun mövzuları, problemləri, qəhrəmanları tək səhnədə yox, həyatda məskən saldılar. Hətta bu qəhrəmanların adı - Sevil, Almaz, Gülüş, Gündüz, Yaşar səhnədən keçib həyata daxil oldu".

❖ ❖ ❖

"Cəfər Cabbarlının əsərləri o təzadlı, mürəkkəb dövrün dramatizmini, qəhrəmanlıq ruhunu, tarixi mübarizə və quruculuq pafosunu bizə olduğu kimi, hər cür ehkamdan, təhrifdən, ədəbi xəyanətdən və konyukturadan qoruyaraq çatdırmışdır".

***Yaşar QARAYEV***

# "Keşikçidağ" Dövlət Mədəniyyət Qoruğuna yürüş təşkil olunmuşdur

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Ağstafa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Avropa İrs Günləri" çərçivəsində "Keşikçidağ" Dövlət Mədəniyyət Qoruğuna və İlham Əliyev zirvəsinə yürüş təşkil edilmişdir.





Yürüş zamanı qoruğun direktoru Musa Mirzəliyev iştirakçılara qoruq haqqında ətraflı məlumat verərək diqqətə çatdırmışdır ki, burada 100-ə qədər ilkin və orta əsrlər dövründə yaradılmış süni və təbii mağaralar, ulu əcdadlarımızdan bizə miras qalmış qədim yaşayış yerləri, 100-ə yaxın Tunc və İlkin Dəmir dövrünə aid kurqanlar mövcuddur. Qafqaz Albaniyasının yerli əhalisi tərəfindən ilkin orta əsrlərdə sıldırım qaya üzərində müdafiə məqsədilə inşa edilmiş və 11 metr hündürlüyündə üçmərtəbəli bir qala, üzü cənub istiqamətinə baxan, bir-birindən 1500 metr aralıda yerləşən və yerli daş materiallardan inşa olunmuş iki alban məbədi, eləcə də yerli əhali tərəfindən "Qüdrət" bulağı kimi tanınan ziyarətgah da bu məkanda yerləşir.

Sonra rayon icra hakimiyyəti başçısının müavini Lalə Eyyubova çıxış edərək qoruğun xalqımızın və yerli sakinlərin qədim tarixə malik olan məişətindən, mədəniyyətindən və dini-etnik xüsusiyyətlərindən danışmışdır.

Yürüş zamanı iştirakçılar qoruq əməkdaşlarının təşkil etdikləri sərgi ilə tanış olmuş, rayonun incəsənət ustalarının çıxışlarına baxmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***





Uzunömürlülər

# Əsrin yaşıdı

İsrail kişi cəldliyini, çevikliyini hələ də itirməyib. Əsrin yaşıdı olsa da, işdən-gücdən ayrılmayıb. Özü demişkən, onu gümrah saxlayan halal zəhmətə meyilli olmasıdır. Altı övlad böyüdüb, hamısının əlini çörəyə çatdırıb. Üç oğlu, üç qızı var. Xoşbəxt bir nəslin ağsaqqalıdır. Onun dəyərli məsləhətlərinə, tövsiyələrinə həmişə ehtiyac duyulur. Göyçayın Ərəbşahverdi kəndində İsrail kişi böyük nüfuz, hörmət sahibidir. Çox adama əl tutub. Gücü çatanköməyi əsirgəməyib. Ona görə də bu mahalda İsrail kişiyə ağsaqqal kimi böyük dəyər verirlər, məsləhətlərindən faydalanırlar. Özü demişkən, övlad böyütmək, onları ürəyincə tərbiyə etmək o qədər də asan deyil. Gərək öz davranışına, əməllərinə nəzarət etməyi bacarasan ki, başqalarından da nəsə tələb edəsən. Fəxr edirəm ki, 20 nəvənin, 30 nəticənin babasıyam, hələ 3 kötücəm də var. Onların xoş sorağını eşidəndə o qədər qürurlu oluram ki…

İsrail kişi deyir ki, adam gərək halallığı hər şeydən uca tutsun. Uzun illər kolxozda çalışmışam, yer şumlamışam, əkin əkmişəm... Övladlarımı zəhmətlə böyütmüşəm. Əllərimin qabarı bu gün də halallığın zəmanətidir. Ona görə də el-oba arasında üzüm ağ, sözüm kəsərlidir.

İsrail İsmayıl oğlu Yaqubov öz keçmişindən danışanda zərrə qədər də sıxıntı keçirmir. Ötən günlərini ömrünün mənalı çağları kimi dəyərləndirir. Geriyə baxanda xoş günlərini xatırlayır. Deyir ki, bu yaşımda o qədər hadisələrə, maraqlı günlərə şahidlik etmişəm ki... Nəyə gücüm çatıbsa, heç nəyi el-obadan, övladlarımdan əsirgəməmişəm. Deyə bilərəm ki, insan dəyərli işlərlə məşğul olanda ömrü də uzun olur. Düz bir əsr yaşadım, həyatımda qəbahət işlətmədim. Arxayınlıqla gələcəyə körpü qurdum. Bu gün el-obanın məclislərində, yığıncaqlarında mənə böyük hörmətlə yanaşırlar. Bir ağsaqqal kimi yuxarı başda yer göstərirlər. Bütün bunlar bu günə qazandığım halallığın nişanəsidir. Gərək yaşadığın ömürdə hər şeyi nəzərə alasan. Axı məndən böyük bir nəsil nümunə götürür, əməllərimə qiymət verirlər. Sevinirəm ki, uğurlarım daha çox olub. Belə yaşamaq gələcəyə etibarlı zəmanətdir. Ömrüm boyu bunu qorumuşam...

İsrail kişi mənalı-mənalı üzümə baxıb, sonra "Ay oğul, - dedi, - bizim tərəflərə çox yerlərdən qonaq gəlir. Hərəsinin də öz izi qalır. Bir dəfə yaşadığım bu kəndə xeyli uzaqlardan, Almaniyadan jurnalistlər gəlmişdi. Mənim bir təşəbbüsüm onlarda böyük maraq doğurdu. Kənddə-kəsəkdə qonşuları bir-birindən ayıran çəpərlərin yerinə bizim mühitə uyğun ağaclar əkmişdik. O qədər səliqəli, mənzərəli görünür ki... Bu, alman jurnalistlərin nəzərindən yayınmadı, onlarda ciddi maraq doğurdu. Hər şeyi öyrənəndən sonra öz vətənlərinə qayıdanda bu barədə mətbuatda maraqlı yazı da verdilər. Adını da belə qoymuşdular: "Göyçaylı mister İsrail". Kəndimizdə başladığımız bu ənənə davam edir. Ağac çəpərlərə daha çox üstünlük verilir. Sevinirəm ki, yeni nəsil də bizim başladığımız bu işi uğurla davam etdirir.



İsrail kişi çox həssas adamdır. Öz həmsöhbətini tez duyur. Nə istədiyini asanlıqla anlayır. Bir sözlə, maraqlı həmsöhbətdir. Uşaqlarından danışanda dedi ki, övladlarım uzaqlarda yaşasalar da, məni unutmurlar. Bəzən təklif edirlər ki, bu yaşımda kənddən-kəsəkdən ayrılıb şəhərə köçüm, onların yanına gedim. Bu təklifi qətiyyən qəbul edə bilmirəm. Axı mən gözümü bu yerlərdə açmışam, vələs narının kölgəsində böyümüşəm, barınıbəhərini dadmışam. Əcdadlarımın ruhu bu yerlərdədir. Məni bu kəndlə o qədər müqəddəs şeylər bağlayır ki... Yaşımın bu çağında bütün bunları unudub heç yerə gedə bilmərəm.

Əsrin yaşıdı özünü doğmaları əhatəsində çox gümrah və xoşbəxt sayır. Elə bilirəm ki, bu kənddən-kəsəkdən ayrılsam, ömrüm qısalar, doğmaların ruhundan uzaq düşərəm. Əcdadlarımı, öz keçmişimi nəvələrimə, nəticələrimə də tanıdıram. Belə olanda dünənlə bugün arasında aydın əlaqə yaranır. Elə övladlarım da öz nəslini dərindən öyrənmək üçün məni sorğu-suala tuturlar. Hər şeyi olduğu kimi öyrənmək istəyirlər.

İsrail kişi yaşadığı kənddə səliqəli bir bağ-bağat yaradıb. Hər gün əkdiyi ağacların nazını çəkir, onlara qulluq etməkdən böyük zövq alır. Deyir ki, gülöyşəni küsdürmək olmaz, zərrə qədər incidisə, barından əlini çək. Çox zərif ağacdır. Hər şeydən əvvəl dilini bilməlisən. Yoxsa istədiyin məhsulu ala bilməzsən. Bizim əsas dolanışıq yerimiz bu bağ-bağatdır. Hər il xeyli məhsul götürürük. Yaşımın bu çağında əlimin zəhməti ilə ərsəyə gətirdiyim hər bir ağaca körpə uşaq kimi qulluq edirəm. Açığını deyim ki, torpaq da bəhrəsiz deyil. Nə qədər çox əziyyət çəksən, əvəzində bol məhsul götürürsən. Hər dəfə yetişdirdiyim meyvələrdən övladlarıma, nəvələrimə pay çıxıram. Baba sovqatı şirin olur. Bütün bunlar ömrümə bir ömür calayır. Həm də yaşamağın mənasını artırır. Bu gün mənim əməllərimi davam etdirənlər çoxdur. Onlar da çörəklərini torpaqdan çıxarır, əkin-biçinə meyillidirlər. Sevinirəm ki, övladlarımı zəhmətə öyrədə bildim. Faydasını özləri görür. Doğrudur, mənim övladlarımın çoxu ali təhsil alıb, müxtəlif müəssisələrdə çalışırlar. Elmi işlə məşğul olanları da var. Hərəsinin xoş sorağı bir tərəfdən gəlir. Çoxu torpaqlarımızın düşməndən azad olunması uğrunda döyüşlərdə iştirak edib. Hərbi işə meyilli olanı da var. Bir sözlə, müxtəlif sahələrdə işləsələr də, elə-obaya xeyir verməyə çalışırlar. Hərəsi xoşbəxt bir ailənin başçısıdır. Elə məni gümrah saxlayan da onların doğru yolda olmasıdır...

Alman jurnalistlərinin yazdığı kimi, göyçaylı mister İsrailin söhbətlərindən doymadıq. Dedi ki, sağlıq olsun, ay oğul, bir də görüşərik...

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

# İmtahan fəsli

## Ağ örpəkli tarlalar bol məhsuldan xəbər verir

*Əvvəli 1-ci səh.*



Bol məhsul istehsal etmək üçün əkin sahələrini genişləndirmək yox, mütərəqqi texnologiyaların, qabaqcıl təcrübənin, innovativ üsulların tətbiqinə üstünlük verildi. Bu məqsədlə pambıq əkiləcək sahələr seçilərkən etibarlı su təminatı və torpağın münbit olması əsas şərt kimi qəbul edildi. Nəticədə keçən illə müqayisədə daha az ərazidə pambıq əkdik. Əkin sahələri az qala yarıbayarı azalsa da, məhsulumuz keçən ildəkindən az olmayacaq. Bu il 7,492 hektar sahədə pambıq əkib-becərmişik. Hər yerdə tarlalar bol məhsuldan xəbər verir. Yığımın ilk günlərindən uğurlu nəticələr qazanılır.

Söhbət əsnasında öyrəndik ki, indiyədək rayon üzrə min tondan çox pambıq tədarük edilmişdir. Bu il pambıqyığan maşınlara geniş meydan veriləcək. Sahələrin maşınla yığıma hazırlanması davam edir. İndiyədək 5 min hektardan çox sahədə yarpaqların tökdürülməsi üçün dərmanlama aparılmışdır. Artıq rayonda qabaqcıl pambıqçılar ordusu da formalaşmışdır. Elbrus Abbasovun, Nadir Vəliyevin, Mehman Əliyevin və Qədim Sadıqovun başçılıq etdikləri fermer təsərrüfatları əmək bəhsinin ön sıralarında addımlayır.

Pambıq qəbulu məntəqələrində artıq ilk taylar qurulub. Barlı-bəhrəli payızın əmək ətirli günləri bir-birini əvəz etdikcə onların sayı da artır.

***L.QULİYEV,***
***"Azərbaycan"***

# Tərtərdə təsərrüfat işlərinin qızğın çağıdır

Tərtər kəndlisi halal zəhməti, yenilməz hünəri ilə ölkənin aqrar sektorunda son illər qabaqcıllıq nümunəsi göstərir. Mütərəqqi texnologiyaların, innovativ üsulların tətbiqi rayonda kənd təsərrüfatı məhsullarının istehsalına əhəmiyyətli təsir göstərir, əmək məhsuldarlığını müqayisəedilməz dərəcədə yüksəldir.



Pambıqçılıq, baramaçılıq, heyvandarlıq, bostan-tərəvəz və meyvəçilik sahəsində nəzərdə tutulan hədəflərə uğurla çatan rayon əməkçiləri taxılçılığın inkişafına da böyük önəm verirlər. Əlbəttə, bu, başadüşüləndir. Bu da bir reallıqdır ki, cəbhə bölgəsi olan Tərtərdə düşmən atəşkəs rejimini tez-tez pozur, öz mənfur və məkrli xarakterinə uyğun olaraq təxribatlar törədir. Yəni bu qaynar bölgədə silahlar susmur. Yağı düşmənlə üz-üzə, göz-gözə dayanan cəbhə bölgəsində hər kəs çörəyin də silah qədər qiymətli olduğunu bilir. Bu mənada dövlətin aqrar sektorun inkişafına, xüsusilə taxılçılığa dəstəyindən güc alan tərtərlilər bol taxıl istehsalında kifayət qədər maraqlıdırlar.

Rayonun "sarı kəhrəba" ustaları bu il 10910 hektar sahədə taxıl əkib-becərmişlər. Bütövlükdə zəmilərdə hər hektarın orta məhsuldarlığı 38,8 sentner olmuşdur. Qazanılan nailiyyət heç kəsi arxayınlaşdırmır. Gələn ilin məhsul bolluğuna indidən etibarlı bünövrə qoymaq üçün zəruri tədbirlər görülür. Taxıl əkiləcək sahələrin aqrotexniki qaydalar əsasında şumlanmasına xüsusi fikir verilir. İndiyədək 7054 hektar sahədə yay şumu edilmişdir. Hazırda təsərrüfatlarda şum qaldırılması davam edir.

Toxum əkinçinin "qızıl fondu" adlandırılır. Bu fikir Tərtərdə də əsas götürülür. Rayonda 4 fermer təsərrüfatı toxumçuluq üzrə ixtisaslaşmışdır. Bacarıqlı toxumçulardan söz düşəndə Fərman Qurbanovun adı birincilər sırasında hörmətlə çəkilir. Fərman Qurbanovun əkinçilikdə zəngin təcrübəsi var. Hələ sovet dönəmində rayonun "Bakı fəhləsi" kolxozunda baş aqronom, kolxoz sədri vəzifələrində çalışmış, yüksək təsərrüfat göstəriciləri qazanmışdır. On ildən çoxdur ki, Qarağacı kəndində fermer təsərrüfatına rəhbərlik edir. Bu il 400 hektarda taxıl əkib-becərmiş, hər hektarın məhsuldarlığını 41 sentnerə çatdırmağa nail olmuşdur. Növbəti ilin məhsulu üçün əkin sahələrini genişləndirmək nəzərdə tutulur. Bu məqsədlə 600 hektar sahədə yay şumu edilmişdir. Taxıl səpininə hazırlıq davam etdirilir. İndiyədək 625 ton toxumluq buğda "vim"dən keçirilib təmizlənmiş, yüksək kondisiya səviyyəsinə çatdırılmışdır. Təcrübəli əkinçi Fərman Qurbanovun təklif etdiyi toxumluq buğda sortları, keyfiyyəti və yüksək məhsuldarlığı ilə torpaq istifadəçilərində böyük maraq yaradır. Fərman kişinin oğlu Emin Qurbanov da atasının yolunu davam etdirir, toxumçuluqla məşğul olur.

Eminin rəhbərlik etdiyi təsərrüfat bu il 500 hektar sahədə taxıl əkməyi planlaşdırır. Artıq keyfiyyətli toxum da, yüksək aqrotexniki qaydalar əsasında hazırlanmış sahələr də səpinə hazırdır.

İsmayılbəyli kəndində Mirzə Cümşüdovun və Hacıqərvənd kəndində Asəf Mehdiyevin rəhbərlik etdikləri fermer təsərrüfatları da taxıl toxumçuluğu sahəsində səmərəli fəaliyyətləri ilə diqqət çəkirlər.

Elmi-Tədqiqat Əkinçilik İnstitutu Tərtər Bölgə Təcrübə Stansiyası isə bu il 12 buğda sortunun əkilib çoxaldılması istiqamətində işləri uğurla davam etdirmiş, qənaətbəxş nəticələr qazanmışdır. Burada yetişdirilib çoxaldılan elit buğda sortlarını əkinçilər yüksək qiymətləndirirlər.

Tərtər rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Mehman Babayev bizimlə söhbətində deyir:

- Dövlətin aqrar sektorun inkişafına verdiyi davamlı və güclü dəstək bölgələrdə gözlənilən nəticələri verir. Cəbhə bölgəsi olan Tərtər rayonunun dinamik sosial-iqtisadi inkişafına, rayon əhalisinin güzəranının ildən-ilə yaxşılaşmasına dövlət səviyyəsində xüsusi qayğı və diqqət göstərilməsi hər kəsdə razılıq və minnətdarlıq doğurur. Kənd təsərrüfatı rayonu olan Tərtərdə digər sahələrlə yanaşı taxılçılığın inkişafına da böyük önəm verilir. Son illər bu sahədə fərəhli nəticələr qazanılır. Dövlətin dəstəyi, birmənalı olaraq deyə bilərəm ki, qazanılan uğurların əsas şərtidir. Belə dəstəklərdən biri olan aqrar subsidiyalar yeni ildən yeni qaydalarla hesablanacaq. Yeni qaydaların tətbiqində əsas məqsəd şəffaflığın təmin edilməsi, prosesə yersiz məmur müdaxiləsini tamamilə aradan qaldırmaqdır. Hazırda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən göndərilmiş "Aqrar subsidiya qaydalarına dair təlimat"ın təbliği ilə məşğuluq. Bu məqsədlə yerli icra nümayəndələri, bələdiyyə sədrləri, fermerlər və torpaq istifadəçiləri ilə metodiki seminarlar aparır, maarifləndirici görüşlər keçiririk. Yeni qaydalar yalnız elektron variantda hazırlanıb həyata keçiriləcək.

Mehman Babayev söhbətində onu da bildirdi ki, həmişə olduğu kimi, Tərtər kəndlisi yenə də qələbə əzmindədir. Rayonun təsərrüfat həyatında indi işlərin qızğın çağıdır. Ağ örpəkli tarlalarda məhsul yığımına yüksək əhvali-ruhiyyə ilə başlanmışdır. Heç şübhəsiz, rayonun hünərvər tarla bahadırları öz qabaqcıllıq mövqelərini cari ildə də qoruyub saxlayacaq, bol "ağ qızıl" məhsulu toplayaraq yeni uğurlara imza atacaqlar. Taxıl səpininin başlamasına isə sayılı günlər qalır. Məqsəd taxıl səpini kampaniyasını yüksək aqrotexniki qaydalar əsasında aparmaq, növbəti ilin bol məhsuluna etibarlı bünövrə qoymaqdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Sosial siyasət güzəranı gündən-günə yaxşılaşdırır

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində aparılan islahatlar güzəranımızı daha da yaxşılaşdırır. Maaş və pensiyaların artırılması, təbii fəlakətlərdən zərər çəkmiş insanlara dövlət dəstəyinin göstərilməsi deməyə əsas verir ki, dövlət başçısı İlham Əliyev daim Azərbaycan vətəndaşlarının sosial həyat tərzinin yüksəldilməsini diqqət mərkəzində saxlayır.



Ölkə rəhbəri şəhid ailələri, müharibə veteranları və əlillərə qayğı göstərir. Keçən ilin aprel ayında keçirilən prezident seçkilərindən sonra ölkə rəhbərinin imzaladığı ilk fərmanla şəhidlərin vərəsələrinə 11 min manat məbləğində ödənişlər edilmiş, 12 mindən çox şəhid ailəsi bundan yararlanmışdır. Daha sonra dövlət başçısının imzaladığı növbəti fərmanla şəhid ailələrinə, Əfqanıstanda həlak olanların ailələri üçün nəzərdə tutulan müavinət 300 manata qaldırılmışdır.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsindən söz düşəndə ilk növbədə məcburi köçkünlərin həyat tərzi yada düşür. Belə ki, məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülmüş, onlar üçün 100-dən çox qəsəbə salınmışdır. Dünya praktikasında analoqu olmayan bu işlər, söz yox ki, Azərbaycanın dövlət siyasətinin mərkəzində insan amilinin dayandığına, dövlət-vətəndaş münasibətlərinin daim diqqətdə saxlanıldığına əyani sübutdur. Bu gün hər bir Azərbaycan vətəndaşı bilir ki, onun arxasında güclü dövlət dayanır.

Ölkə rəhbərinin əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı imzaladığı fərman və sərəncamlardan yararlananlardan biri Şirin İsbəndiyarovdur. Kəlbəcər işğal olunanda o, ailəsi ilə Gəncəyə pənah gətirmişdi. İlk günlər tanışlarının evində qalan Şirin kişi sonra Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialının yataqxanasında məskunlaşmışdır. 6 nəfər kiçik bir otaqda qalsa da, söhbət düşəndə deyib ki, pis günün ömrü az olar. Bir müddət sonra Gəncədə salınmış məcburi köçkün qəsəbəsində o da dördotaqlı mənzillə təmin olunmuşdur. Söhbət zamanı Şirin kişinin həyat yoldaşı Leyli İsbəndiyarova onlara yaradılan bu şəraitə görə dövlət başçısına minnətdarlıq etdi. Dedi ki, hazırda 89 yaşı var. Övladları da yerbəyer olublar. Dolanışıq sarıdan da çətinlikləri yoxdur. Sağ olsun dövlətimiz. Pensiyalar, müavinətlər artdığı üçün dolanışığımız yaxşıdır.

Yaradılan şəraitə baxmayaraq, onlar erməni tapdağı altında olan ata-baba yurdlarına qayıdacaqları günü gözləyirlər. İnanırlar ki, o gün uzaqda deyil. Ordumuz işğal olunmuş ərazilərimizi azad etməyə qadirdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Avropa İttifaqının "Regionların inkişafına dəstək Qrant Proqramı" çərçivəsində "Regionlarda rəqabət qabiliyyətli sahələrin inkişafına dəstək" layihəsi ilə əlaqədar elan olunmuş açıq tenderində iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Tender komissiyasının qərarına əsasən "Bis Co" MMC və "SRS Consulting" MMC konsorsiumu qalib elan edilmiş və həmin konsorsiumla satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Gəncə şəhər Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzində yardımçı binaların tikintisi və əsaslı təmiri işlərinin satın alınması üzrə 31 iyul 2019-cu il tarixdə keçirilmiş elektron satınalma müsabiqəsinin qalibi "Az AVS" MMC və "GrossConstruction" MMC konsorsiumunun aparıcı təşkilatı olan "GrossConstruction" MMC olmuşdur.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi tərəfindən 17 sentyabr 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə inzibati binaya yumşaq inventar və xüsusi geyimlərin alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "TM GROUP" MMC olmuşdur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *kotirovka sorğusu elan edir*

Mərkəzi Bankda istismarda olan bar-kod printerləri üçün etiketlərin satın alınması.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 07 oktyabr 2019-cu il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 08 oktyabr 2019-cu il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən (Elnur Musayev, telefon: 493-11-22 (daxili 490)) əldə etmək olar.

***Tender komissiyası***

# Bol bərəkətli "Yaşıl çay"




Lənkərandakı "Yaşıl çay" fermer təsərrüfatının qazandığı nailiyyətlər Azərbaycanın ənənəvi kənd təsərrüfatı sahələrindən olan çayçılığın keçmiş şöhrətinin qaytarıldığını təsdiq edir. Çayçılar bol, həm də keyfiyyətli məhsul yetişdirməyə nail olublar.

Təsərrüfatın rəhbəri Araz Yaqubovun məlumatına görə, bu il 65 hektar çay plantasiyasından 120 ton yaşıl çay yığılmasına imkan var. Burada çaydan əlavə sitrus və yem bitkiləri, yarpaqlarından baramaçılıqda istifadə olunan tut ağacları da yetişdirilir.

Hazırda təsərrüfatda yaşıl çay yığımı davam edir.

*Şəkildə: qabaqcıl çayçılardan Cahan Hüseynova və Günay Əliyeva məhsul yığımı zamanı.*

***Foto Fərman Bağırovundur, "Azərbaycan"***

# "Azercell" növbəti dəfə "İlin Telekommunikasiya Şirkəti" seçilib

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" biznes aləmində nüfuzlu sayılan Beynəlxalq "Stevie" mükafatına layiq görülüb. 2018-ci ilin nəticələri və nailiyyətləri üzrə münsiflər heyətinin apardığı dəyərləndirmə nəticəsində "Azercell" növbəti dəfə "İlin Telekommunikasiya Şirkəti" nominasiyasında Bürünc "Stevie" mükafatı qazanıb. Şirkətin respublika boyu şəbəkənin gücləndirilməsi və genişləndirilməsi istiqamətində uğurla tamamladığı böyükmiqyaslı layihələri, ölkənin telekommunikasiya sahəsinin inkişafına verdiyi töhfəsi, sərgilədiyi nümunəvi müştəri xidmətləri, innovativ həllər və məhsullar bazası, eləcə




də həyata keçirdiyi sosial təşəbbüsləri bu mükafatı qazanmasına vəsilə olub.

Xatırladaq ki, uğurlu fəaliyyətinin nəticəsi olaraq "Azercell" 2018-ci ili 49 faiz bazar payı ilə lider mövqedə başa vurub. Şirkət bu müddət ərzində daha 30 bölgədə 800-dən artıq 4G stansiyası qurub. Beləliklə də, "Azercell"in 4G istifadəçilərinin sayı 1 milyonu keçib, internet istifadəsi isə 2017-ci illə müqayisədə 13 petabayta çatıb. Təkcə 2018-ci ildə "Azercell"in ölkənin telekommunikasiya sahəsinin inkişafına yatırdığı sərmayənin dəyəri 59,5 milyon ABŞ dolları təşkil edib.

Məlumat üçün bildirək ki, 2002-ci ildə təsis olunmuş "Stevie" mükafatının dəyərləndirmə prosesinə iş adamlarının, biznes sahəsində aparıcı mövqedə çalışan şəxslərin və təlimçilərin də yer aldığı 1000-ə yaxın mütəxəssis cəlb olunur. "Stevie" mükafatının məqsədi dünyanın müxtəlif ölkələrində uğur qazanmış şirkətlərin tanıdılmasıdır. Müsabiqənin missiyası nümunəvi təşkilatların profilinin yüksəldilməsi, mətbuat, işgüzar aləm və geniş ictimaiyyət arasında fərqlənən fərdlərin fəaliyyətinin qiymətləndirilməsidir.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Adanada polis avtobusuna terror hücumu



Türkiyənin cənubunda yerləşən Adana şəhərində baş vermiş partlayış nəticəsində 4 nəfər, o cümlədən bir polis əməkdaşı yaralanmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Adana valisi Mahmud Dəmirdaşın dediyinə görə, partlayıcı qurğu Yuregir rayonunda yaxınlıqdan polis avtobusu keçərkən işə düşmüşdür. Partlayış nəticəsində bir polis və üç dinc sakin yaralanmışdır. İlkin məlumata görə, yaralıların həyatına təhlükə yoxdur.

## Makron: "Söz verdim, lakin icra edə bilmədik"



Fransa Prezidenti Emmanuel Makron bildirmişdir ki, son illər ölkədə miqrantların sayı artmışdır və gələcəkdə artmaqda davam edəcək. "Fransa miqrantları yaxşı səviyyədə qəbul etmək istəyirsə, onların hamısını qəbul edə bilməz" deyə o, "Europe 1" radiosuna müsahibəsində qeyd etmişdir.

Makronun dediyinə görə, Avropa ölkələri bu məsələdə lazımi əməkdaşlıq etmirlər. Fransa lideri miqrantları yaxşı qəbul etmək barədə verdiyi vədlə bağlı etirafını bildirmişdir: "Mənim belə bir məqsədim var idi. 2017-ci ilin iyulunda mən söz verdim, lakin biz bunu icra edə bilmədik".

Fransa liderinin fikrincə, miqrasiya məsələləri ilə əlaqədar Avropada vahid siyasət və qaydalar olmalıdır: "Biz Fransada, elə bütün Avropada olduğu kimi, qeyri-səmərəli və qeyri-humanist hərəkət edirik". Makron həmçinin qeyd etmişdir ki, müdafiəyə ehtiyacı olan miqrantlara güzəştlər edilməli, digərləri isə deportasiya olunmalıdır.

## Tramp Venesuela və İran nümayəndələrini ABŞ-a buraxmır

ABŞ Prezidenti Donald Tramp Venesuela və İran hökumətlərinin yüksək vəzifəli nümayəndələrinin, habelə onların ailə üzvlərinin ABŞ-a girişinə icazənin dayandırılması barədə fərman imzalamışdır. Bu barədə ABŞ lideri Nyu Yorkda keçirdiyi mətbuat konfransında məlumat vermişdir. O, fərmanla bağlı əlavə təfərrüatları açıqlamamışdır.

Qərar korrupsiya ilə mübarizə çərçivəsində qəbul edilmişdir. Prezident fərmanının icrası məsələləri ilə Dövlət Departamenti və Daxili Təhlükəsizlik Nazirliyi məşğul olacaq.

## İslamofobiya ilə mübarizə üçün telekanal yaradılır



Müsəlmanlara münasibətdə düşmənçilik təzahürlərinə qarşı (islamofobiya) mübarizə üçün Türkiyə, Pakistan və Malayziya ingilisdilli telekanal yaratmaq barədə qərar qəbul etmişlər. Bu barədə Pakistanın Baş Naziri İmran Xan məlumat vermişdir.

Xanın dediyinə görə, bu qərar Nyu Yorkda BMT Baş Assambleyasının 74-cü sessiyasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Malayziyanın Baş Naziri Mahathir Məhəmmədlə üçtərəfli görüş zamanı razılaşdırılmışdır.

Telekanalın əsas məqsədi islam dünyasının üzləşdiyi çətinliklərlə və islamın dünyada yanlış qəbul edilməsinə qarşı mübarizə aparmaq olacaq.

Pakistanın Baş Naziri izah etmişdir ki, dünyanın müxtəlif ölkələrinin sakinləri yeni telekanal vasitəsilə islam barədə doğru məlumat alacaqlar. Bununla da radikallar arqumentlərindən məhrum olacaq və islamofobiya zəminində cinayətkarlığın səviyyəsi aşağı düşəcək. Telekanalın efirində islamın tarixi barədə bədii filmlər və seriallar nümayiş olunacaq, adamlar məlumatlandırılacaq və maarifləndiriləcəklər.

## Kəşmirdə avqustun əvvəllərindən bəri 13 minə yaxın kişi yoxa çıxıb



Ötən ayın 5-də Hindistan Cəmmu və Kəşmir ştatının xüsusi muxtar statusunu ləğv etdikdən bəri orada 13 minə yaxın kişi yoxa çıxmışdır. Onların sonrakı aqibəti barədə heç bir məlumat yoxdur. Bu barədə üç qeyri-hökumət təşkilatı - Hindistan Müsəlman Qadınları Forumu (MWF), Hindistanlı Qadınların Milli Federasiyası (NFIW) və Tərəqqipərvər Qadın Təşkilatının (PMS) hazırladığı birgə hesabatda məlumat verilmişdir.

"Həqiqət axtarışında" adlı hesabat 17-21 sentyabrda Cəmmu və Kəşmirə səfər əsasında hazırlanmışdır.

MWF-nın başçısı Səidə Həmid ştatda həyat şəraitinin qeyri-insani olduğunu bildirmişdir: "Avqustun 5-dən bəri Cəmmu və Kəşmirdə 13 minə yaxın kişi tutulmuşdur. Adamların dediyinə görə, hindistanlı əsgərlər gəncləri həbs edirlər. Onların azadlığa buraxılması üçün 20-60 min rupi pul tələb olunur".

NFIW-nın baş katibi Enni Raca qeyd etmişdir ki, təhqiqat çərçivəsində təkcə yerli sakinlərlə deyil, tibb işçiləri və təhlükəsizlik qüvvələrinin nümayəndələri ilə də görüş keçirilmişdir. Racanın dediyinə görə, avqustun 5-dən sonra Cəmmu və Kəşmirdə vəziyyəti "Hindistanın əli ilə törədilmiş soyqırımı" kimi qiymətləndirmək olar.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin avadanlıqlarla təchizatının satın alınması üzrə keçirilən
## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **İştirak haqqı:** | **200,0 (iki yüz ) manat** |
| **Satınalan təşkilat:** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** |
| **VÖEN:** | **1700093011** |
| **Bank :** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **KOD:** | **210005** |
| **M/H :** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **SWIFT** | **CTREAZ22** |
| **H/H :** | **AZ80CTRE00000000000002138501** |

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **24.10.2019-cu il saat 17:00-dək** və tender təklifi ilə bank təminatı sənədlərini **29.10.2019-cu il saat 15:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.10.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Bəzi şimal və şərq rayonlarında yağış yağacaq




Ölkə ərazisində bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 15-19°, gündüz 24-27° isti, Bakıda gecə 17-19°, gündüz 25-27° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 761 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şimal və şərq rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 15-20°, gündüz 26-31° isti, dağlarda gecə 8-13°, gündüz 16-21° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, Abşeron yarımadasında meteoroloji amillərin norma daxilində tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Qazıbəyovlar ailəsinə əzizləri

**ETİBAR QAZIBƏYOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi

**ETİBAR QAZIBƏYOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

M.Ə.Əfəndiyev adına 2 №-li Şəhər Klinik Xəstəxanasının kollektivi Elxan Məmmədova qardaşı

**FUAD TAHİR OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9028
Sifariş 3165
Qiyməti 40 qəpik